QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 197 (6161) 5 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident açıqladı: Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndi işğaldan azad edilib!

**Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün “Twitter” hesabında bildirib.**



## Prezidentin köməkçisi: “Ermənistan yalan və saxta məlumatlar yayır”



Ermənistan və qondarma rejim tərəfindən biri digərinə zidd olan çoxlu sayda yalan və saxta məlumatlar yayılır. Nəticədə bu kimi saxta məlumatların ifşası üçün Azərbaycan tərəfinin müdaxiləsinə ehtiyac qalmır. SİA-nın verdiyi məlumata görə, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev...

Bax 4

## “Ermənistanın açıq-aydın müharibə cinayəti olan əməlləri beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə qınanmalıdır”



Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Avropa Şurası Nazirlər Komitəsinin 130-cu iclasında iştirak edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasdakı çıxışı zamanı nazir Ceyhun Bayramov Yunanıstan Hökumətinə Nazirlər Komitəsində sədrliyinin uğurla başa çatması münasibətilə təbriklərini çatdırıb və Azərbaycanın gələcək Almaniya sədrliyinə tam dəstəyini ifadə edib.

Bax 4

## Ermənistanı uçuruma aparan şəxs: Paşinyanın reallıqları yalanlarla dəyişmək cəhdi



Bax 13

Xüsusən Ermənistanın baş naziri Nikol Paşinyan gah sosial şəbəkə hesabı vasitəsilə canlı yayıma çıxaraq “Dağlıq Qarabağ münaqişəsinin diplomatik həllinin olmadığını” ...

## Müdafiə Nazirliyi: “Azərbaycanın hərbi qulluqçuları mülki əhali ilə davranış qaydalarına əməl edir”



Bax 4

Hər gün döyüşlərdə üzləşdiyi uğursuzluqlar, verdiyi çoxlu sayda itkilər və itirdiyi vacib mövqelər düşməni müxtəlif üsullara əl atmağa vadar edir. “Müharibədə bütün vasitələr yaxşıdır” prinsipindən irəli gələrək düşmən artıq Azərbaycan Ordusunun hərbi qulluqçularına qarşı böhtan və qarayaxama kampaniyasına başlayıb. Bu barədə Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən SİA-ya məlumat verilib.

## Leyla Abdullayeva: “Ermənistan prezidenti RBK kanalına müsahibəsində faktları təhrif edib”

Bax 3



Ermənistan prezidenti Rusiyanın RBK televiziya kanalına müsahibəsində faktları təhrif edib. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin...

## Azərbaycanın müasir hərbi texnologiyası beynəlxalq siyasi ekspertlərin gözündə



Azərbaycan ordusu döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf...

Bax 6

Bax 5



## İşğaldan azad edilmiş şəhər və kəndlərimiz

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 4-dək 4 şəhər, 3 qəsəbə və 199 kənd işğaldan azad edilib. İndiyədəkCəbrayıl şəhəri və rayonun 77 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Minci van, Ağbənd qəsəbələri və 46 kəndi,...

### Alman portalı Fransanın faşist qrupunun liderinin Ermənistan üçün vuruşmağa and içməsindən yazır



Bax 9

### Hikmət Babaoğlu: “Ordumuzun uğurları üçün siyasi təhlükəsizlik çətiri yaradır”



Bax 10

### “Fənərbağça” 9 ildən sonra öz rekordunu yeniləyib



Bax 16

# “Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq”

*Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

*“Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir”*

**- Cənab Prezident, Siz artıq qələbəni dadmısınız?**

- Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi. Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi. Sonuncusu sentyabrın 27-də baş verdi. Biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik.

**- Putin müdaxilə etmək istəmir. Beləliklə, Siz maneəsiz hərəkət edə bilərsiniz?**

- Əslində, mən dəfələrlə vəziyyəti şərh etmişəm ki, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Minsk qrupunun həmsədrləri - üç ölkə 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. Ona görə də, bu ölkələr özləri həll üçün qanuni baza yaradıblar. Lakin Ermənistan bu qətnamələri yerinə yetirmədi. Mənim istinad etdiyim başqa bir məqam ondan ibarətdir ki, vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar. Lakin onlar neytral olmasalar, vasitəçi ola bilməzlər. Ona görə də, bizim yerimdə bu və ya digər dərəcədə gördüyümüz neytrallıq, düşünürəm ki, işlərin necə getməsinin yeganə yoludur. Odur ki, bu, bizim üçün yaşıl işıq deyildi. Biz sentyabrın 27-də Ermənistanın hücumunadək nə edəcəyi barədə 100 faiz təsəvvürümüz olmadan cavab verdik, biz ölkəmizi qorumaq, insanlarımızı qorumaq və ədaləti bərpa etmək üçün doğru olduğunu düşündüyümüzü etdik.

**- Rəsmi Ankaranın dəstəyi Sizin fəaliyyətiniz üçün nə dərəcədə səmərəlidir?**

- Çox səmərəlidir. Bu dəstək lap əvvəldən, sentyabrın 27-də başlayan toqquşmaların ilk saatlarından gəldi. Türkiyə Prezidenti çox aydın bəyanatla çıxış etdi ki, Türkiyə Azərbaycanın yanındadır və bu, siyasi və mənəvi dəstəyin çox mühüm göstəricisi idi. Mən dəfələrlə o fakta diqqət çəkmişəm ki, bu, yalnız siyasi və mənəvi dəstəkdir, lakin bu, kifayət idi. Çünki Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan edəndə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür, biz təcavüzkar deyilik, biz başqa ölkələrə hücum etmirik. Ona görə də, toqquşmaların ilk saatlarında başlayan və indiyədək davam edən bu siyasi dəstək münaqişənin həlli üçün mühüm əhəmiyyət kəsb edir.

**- Sizin ordunuzla birlikdə Ermənistana qarşı döyüşən mücahidlərin mövcudluğu barədə Prezident Makron, Rusiyanın Xarici İşlər nazirinin söylədikləri barədə nə deyə bilərsiniz? Bu, doğrudur?**

- Bu müddət ərzində, bir aydan çox vaxtda mən artıq dəfələrlə bu məsələyə diqqət çəkmişəm və demişəm ki, bu, doğru deyil. Bu, doğru məlumat deyil. Mən bilmirəm bu məlumat niyə yayılmışdı və hələ də yayılır. Birincisi, bizə bununla bağlı heç bir dəlil, heç bir sübut təqdim olunmayıb. Hamısı sözlər idi və bu sözlər münaqişənin ilk günlərində söylənmişdi. Siz Prezident Makronun bununla bağlı bəyanatına istinad etdiniz. Bu, yalnız münaqişənin ilk günlərində idi. O vaxtdan bu yana biz bu cür bəyanatlar eşitməmişik. Bu, birincisi. Heç bir sübut, heç bir dəlil. İkincisi, ehtiyac yoxdur. Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var. Ona görə də, buna ehtiyac yoxdur. Lakin əfsuslar olsun ki, digər tərəfdə baş verənlərə məhəl qoyulmur. Bizdə əcnəbilərin Ermənistan tərəfindən döyüşdüyünə dair kifayət qədər dəlillər var. Onlar erməni əsilli olduqlarını deyirlər, lakin birincisi, bunun heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısının erməni olmasına dair bizdə 100 faiz dəlil yoxdur. Biz başqalarının olduğunu bilirik. Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma “Dağlıq Qarabağ ordusu”na qoşulublar. Ona görə də, əfsuslar olsun ki, bu məsələ qətiyyən müzakirə mövzusu deyil. Bu, Azərbaycana qarşı qəsdən törədilmiş hücum barədə siyasi hücum təəssüratı yaradır. Bundan əlavə, ermənilərin bu yalan bəyanatdan sui-istifadə etmələrinin səbəbi odur ki, bizim onları döyüş meydanında məğlub etdiyimizi qəbul etmək onlar üçün yəqin ki, çox ağrılıdır. Onlar 30 il ərzində özlərini elə göstərirdilər ki, məğlubedilməz orduları var. Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər, baxmayaraq ki, biz bunun doğru olmadığını bilirik. Beləliklə, biz onlara kimin kim olduğunu sübut etdik. Biz sübut etdik ki, onların “guya məğlubedilməz ordusu” əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Lakin onlar artıq öz məğlubiyyətlərini etiraf ediblər. Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir.

**- 98 faiz ermənilərin məskunlaşdığı ərazidə mümkün qələbəni qazanmağın Sizin üçün hansı çətinliyi olacaq?**

- Bu ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər. Bu, statistikadır, bizim deyil, sovet dövrünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ muxtar vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar. Təəssüflər olsun ki, heç kim Ermənistanı bunda günahlandırmayıb. Biz Ermənistana qarşı hər hansı sanksiyaları görmədik, bizə hər hansı ciddi informasiya dəstəyi görmədik. Beləliklə, bu, edildi və onlar yerində reallıq yaratdılar. Bu, birincisi. İkincisi, 200 il bundan əvvəl orada, ümumiyyətlə, erməni yox idi. Çünki mən Qarabağ xanının Rus imperiyası ilə imzaladığı müqavilələrə dəfələrlə istinad etmişəm. Həmin müqavilədə - 1805-ci il Kürəkçay müqaviləsində etnik ermənilər barədə heç nə deyilmir. Etnik ermənilər bu regiona onun dini və etnik tərkibini dəyişdirmək məqsədilə Şərqi Anadoludan və İrandan çar Rusiyası tərəfindən gətirilmişdilər. Beləliklə, bu, tarixi hissəsidir. İndi sizin sualınıza gələk.

*Ardı Səh. 3*

# "Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq"

## *Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib*

*"Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq"*

Əvvəli-Səh-2

Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq və onlar bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altından olduğundan daha yaxşı həyat sürəcəklər.

**- Üç atəşkəs artıq pozulub. Sülh danışıqlarının heç bir nəticə vermədiyi görünür. Buna görə kim günahkardır?**

- Ermənistan. Xronologiyaya nəzər salın. Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları və bir çox başqa ölkələr ballistik raketin haradan buraxılmasını aşkar edə bilərlər. Odur ki, onlar raketin Ermənistandan buraxıldığını bilirlər. Paşinyan bunu onlar etməyiblər dedikdə yalan danışırdı. Bu, 24 saatdan az müddətdə baş vermişdir və onlar gecə çox namərdcəsinə hücum etdilər, onlar bilərəkdən yaşayış yerinə hücum etdilər və bu iki hücum nəticəsində demək olar ki, 30 günahsız insan, o cümlədən uşaqlar öldürülmüşdür. İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik. Onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi.

**- Üç həftə bundan qabaq görüşdüyüm baş nazir Paşinyana cavabınız nə olar? O dedi ki, Dağlıq Qarabağda yeni soyqırımının olmasından qorxur.**

- Tamamilə yalandır. Onların bütün tarixi yalandır. Bunun heç bir əlaməti yoxdur. Mən dedim ki, Azərbaycanda minlərlə erməni yaşayır. Ermənistanda və ya Dağlıq Qarabağda yaşayan heç bir azərbaycanlı yoxdur. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Regionumuzda bir millətin belə üstünlük təşkil etdiyi başqa bir ölkə tapa bilərsinizmi? Bu, monorespublikadır.

*"Azərbaycanda minlərlə erməni yaşayır. Ermənistanda və ya Dağlıq Qarabağda yaşayan heç bir azərbaycanlı yoxdur. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Regionumuzda bir millətin belə üstünlük təşkil etdiyi başqa bir ölkə tapa bilərsinizmi? Bu, monorespublikadır"*

Nəyə görə? Çünki onlar ya hər kəsi qovublar, ya da başqa millətlər orada yaşaya bilmir. Azərbaycan multietnik, çoxkonfessiyalı ölkədir. Buna görə dırnaqarası soyqırımı haqqında danışmaq tamamilə qəbuledilməzdir və bu, onların təqdim etmək istədiyi daha bir feykdir, necə ki, onlar bunu həmişə edirlər. Onlar həmişə özlərini əziyyət çəkən, həmişə ağlayan, həmişə köməyə ehtiyacı olan insanlar kimi təqdim etmək istəyirlər. Lakin, baxın, bu gün nələr baş verir. O, Prezident Putinə gündə beş dəfə zəng edir, o, Prezident Makrona ola bilsin bir qədər az zəng edir, amma yenə də zəng edir, o, hər kəsə zəng edir. O, Avropa liderlərinə zəng edir. O, Dağlıq Qarabağın tanınmasını xahiş edir, lakin başa düşmür ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı Avropa İttifaqının vahid mövqeyi var. Ona görə müəyyən dəstəyi əldə etmək üçün o, hər bir feyk üsuldan istifadə etməyə çalışır. Odur ki, dediyim kimi bu, tamamilə yalandır. Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq.

**- İtaliya ilə Sizin xüsusi tərəfdaşlığınız var. Siz bizim birinci neft və qaz təchizatçımızsınız. Müharibə daha çox qanın tökülməsinə səbəb olarsa, bunun tərəfdaşlığa təsir etməyindən qorxmursunuz?**

- Mən belə hesab etmirəm. Birincisi, mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib. Kompromislər haqqında ona sual verildikdə o, həmişə öz müqəddəratını təyinetmədən danışır. Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, dəmələri ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir. Biz hazırıq, bu, birincisi. Mən bunun bizim tərəfdaşlarla hər hansı mürəkkəblik yaradacağını düşünmürəm. İtaliya ilə bizim xüsusi münasibətlərimiz var. Biz Strateji Tərəfdaşlıq Sənədi adlanan sənədi imzalamışıq. Mən pandemiyadan əvvəl İtaliyaya rəsmi səfər etmişdim, o, çox uğurlu olmuşdur və biz böyük planlarla geriyə, evə döndük. Mən əminəm ki, biz bu planları icra edəcəyik, baxmayaraq ki, pandemiya onlara bir az müdaxilə etdi. Lakin bu planlar əsasən enerji sektoru ilə əlaqəli deyildi. Düşünürəm ki, biz enerji istiqamətində bütün planlaşdırdıqlarımızı icra etdik. Hesab edirəm ki, bu gün İtaliya neft təchizatına görə bizim üçün əsas ticarət tərəfdaşıdır və tezliklə biz TAP-ın açılışını qeyd edəcəyik və bununla da Cənub Qaz Dəhlizi tamamlanmış olacaqdır. Üstəgəl, bir çox italyan şirkəti uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz podratçı qismində daha çox italyan şirkətlərini dəvət etməyi planlaşdırırıq. Yeri gəlmişkən, burada onlar neft-kimya məhsulları üzrə bir çox önəmli layihələri tamamlamışdılar və biz Prezident Mattarella ilə birlikdə açılış mərasimində iştirak etmişik. Buna görə mən əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək. Mən bundan əminəm.

# Səfir: "Çin Azərbaycan ilə münasibətlərin inkişafına böyük önəm verir"

Noyabrın 4-də Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Quo Minlə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Spiker Sahibə Qafarova onu parlamentdə görməkdən məmnun olduğunu bildirib. Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan dost Çin ilə müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinə böyük önəm verir.

Ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının rolundan danışan Milli Məclisin Sədri ölkə liderlərinin qarşılıqlı səfərlərini xüsusi vurğulayıb. Sahibə Qafarova bu günədək Azərbaycan ilə Çin arasında 81 sənədin imzalandığını və onların əlaqələrimizin gələcək inkişafı üçün etibarlı hüquqi əsas formalaşdırdığını diqqətə çatdırıb. Həmçinin qeyd edilib ki, Azərbaycanda 100-dən çox Çin şirkəti qeydiyyatdan keçib və uğurla fəaliyyət göstərir.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında münasibətlər yüksək səviyyədədir və bu münasibətlərin inkişafında parlamentlərarası əlaqələr üzrə işçi qrupların rolu böyükdür. Sahibə Qafarova iki ölkə parlamentlərinin deputatlarının beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirib, pandemiyadan sonra qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyindən danışıb.



COVID-19 pandemiyası dövründə ölkələrimizin əməkdaşlığına da toxunan Spiker Sahibə Qafarova koronavirusla mübarizədə Çinin ölkəmizə verdiyi dəstəyə və göstərdiyi yardımlara görə minnətdarlığını ifadə edib. Söhbət zamanı Sahibə Qafarova Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışaraq cəbhə bölgəsindəki vəziyyət haqqında ətraflı məlumat verib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Çinin Azərbaycandakı səfiri xanım Quo Min ölkəsinin Azərbaycan ilə münasibətlərin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Qonaq ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün parlamentlərarası əlaqələrin xüsusi rolunu qeyd edib. Bildirib ki, Çin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən qısa müddətdə həllinə, regionda sülhün və sabitliyin bərqərar olmasına ümid edir. Görüşdə, həmçinin tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Leyla Abdullayeva: "Ermənistan prezidenti RBK kanalına müsahibəsində faktları təhrif edib"



Ermənistan prezidenti Rusiyanın RBK televiziya kanalına müsahibəsində faktları təhrif edib. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva özünün "Twitter" hesabında bildirib.

Leyla Abdullayeva qeyd edib: "O, Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi, demoqrafik və iqtisadi vəziyyəti barədə yalan danışıb. Ermənistan prezidenti 1980-ci illərin sonlarında 1 milyondan çox ermənin Azərbaycanı tərk etdiyini söyləyib. Fakt isə budur ki, 1989-cu il siyahıyaalmasına görə 390 min 505 erməni yaşayıb".

# Prezidentin köməkçisi: "Ermənistan yalan və saxta məlumatlar yayır"

***Ermənistan və qondarma rejim tərəfindən biri digərinə zidd olan çoxlu sayda yalan və saxta məlumatlar yayılır. Nəticədə bu kimi saxta məlumatların ifşası üçün Azərbaycan tərəfinin müdaxiləsinə ehtiyac qalmır. SİA-nın verdiyi məlumata görə, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev açıqlamasında deyib.***



Prezidentin köməkçisi bildirib ki, Ermənistan müdafiə nazirinin AR Dövlət Sərhəd Xidmətinin hərbi geyimində olan erməni hərbçilərlə fotoşəkli Ermənistanın muzdlularla bağlı saxta kampaniyasını alt-üst etdi: "Ermənistanın Müdafiə Nazirliyi və digər qurumları yeni muzdlu barədə məlumat verəcəklərini bəyan etdikləri halda, Ermənistanın Ədliyyə Nazirliyi üçüncü muzdlunun olmadığını etiraf etdi. Yəqin ki, səhnələşdirilmiş teatr üçün müvafiq şəxsi tapa bilməyiblər. Süni ruh yüksəkliyi yaratmaq üçün özünü bloqer adlandıran şəxslər cəlb olunaraq Ermənistan tərəfindən həmçinin saxta döyüş səhnələri hazırlanır. İşğaldan azad edilmiş ərazilərimizdə mülki insanın öldürülməsi barədə qondarma rejimin yaydığı məlumat növbəti dezinformasiyadır. Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biri də odur ki, Azərbaycan mülki insanlarla savaş aparmır".

H.Hacıyev qeyd edib ki, Xocalı soyqırımı insanlıq əleyhinə cinayətinin bariz nümunəsi olaraq, Ermənistanın siyasi-hərbi rəhbərliyinin əsil mahiyyətini nümayiş etdirdi: "İrqi ayrı-seçkilik əsasında Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan xalqına qarşı etnik təmizləmə törədilmişdir. Tərtər, Gəncə, Bərdə və digər şəhərlərin mülki əhalisinin, o cümlədən azyaşlı uşaqların raket hücumları ilə qətlə yetirilməsi Ermənistanın Xocalı soyqırımı siyasətinin davamıdır. Dəyişən yalnız istifadə olunan vasitələrdir. Ermənistan silahlı qüvvələrinin doktrinasında və döyüş hazırlığında mülki Azərbaycan əhalisinin hədəfə alınması müəyyən edilmiş məqsədlərdən biridir.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan mülki insanlar üçün ən böyük təhlükə Ermənistan və kriminal xunta rejimidir. Onlar tərəfindən mülki insanlara qarşı cinayətlərin törədilməsi və sonra buna görə Azərbaycanın günahlandırılması halları istisna edilməməlidir. İşğal olunmuş ərazilərimizdə yaşayan mülki erməni əhalisini ayıq-sayıq olmağa və hərbi əməliyyatların getdiyi ərazilərdən kənar durmağa çağırırıq. Azərbaycanın nəzarətində olan əraziyə keçmək istəyən mülki insanlara beynəlxalq humanizm prinsipləri əsasında bütün lazımi yardım və dəstək göstəriləcəkdir".

## "Ermənistanın açıq-aydın müharibə cinayəti olan əməlləri beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə qınanmalıdır"



Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Avropa Şurası Nazirlər Komitəsinin 130-cu iclasında iştirak edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasdakı çıxışı zamanı nazir Ceyhun Bayramov Yunanıstan Hökumətinə Nazirlər Komitəsində sədrliyinin uğurla başa çatması münasibətilə təbriklərini çatdırıb və Azərbaycanın gələcək Almaniya sədrliyinə tam dəstəyini ifadə edib.

2021-ci ilin yanvar ayında Azərbaycanın Avropa Şurasına üzvlüyünün 20-ci ildönümünün tamam olacağını qeyd edən nazir deyib: "Ötən illər ərzində təşkilatda üzvlük Azərbaycanda insan hüquqları, demokratiya və qanunun aliliyinə hörmətin gücləndirilməsinə töhfə verib və biz bu vacib işi davam etdirməyə hazırıq".

Ceyhun Bayramov, həmçinin bildirib: "Avropa Şurasına üzv olarkən Azərbaycan və Ermənistan Dağlıq-Qarabağ münaqişəsinin həlli üzrə birgə öhdəlik götürüb. Bu münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizinin qeyri-qanuni işğalı və 1 milyona yaxın Azərbaycan vətəndaşının məcburi köçkünə çevrilməsi ilə nəticələnib. ATƏT-in Minsk qrupu çərçivəsində son 28 il ərzində aparılan vasitəçilik səyləri Ermənistanda bir-birini əvəz etmiş hökumətlərin təcavüzkar və işğalçı siyasəti səbəbindən heç bir nəticə verməyib. Xatırlatmalıyam ki, Avropa İnsan Hüquqları Məhkəməsi 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qərarında Azərbaycanın işğal edilmiş ərazilərinə Ermənistan tərəfindən səmərəli nəzarətin həyata keçirildiyini təsbit edib. Hətta bu qərardan sonra da Ermənistan öz məsuliyyətini rədd etməkdə davam edib və buna görə heç bir sanksiyaya məruz qalmayıb.

"Qarabağ Ermənistandır" bəyanatı, eləcə də "yeni ərazilər üçün yeni müharibə" doktrinasının elan edilməsi də daxil olmaqla, təxribat xarakterli silsilə addımlarının davamı olaraq Ermənistanın siyasi-hərbi rəhbərliyi sentyabrın 27-də Azərbaycana qarşı yeni hərbi təcavüzə başlayıb. Hərbi əməliyyatların ilk ünündən etibarən, Ermənistan Azərbaycanın sıx məskunlaşmış və münaqişə zonasından kənar yerləşən ərazilərini ağır atəşə tutmaqdadır. Bu hücumlar nəticəsində 12-si uşaq olmaqla, 91 nəfər mülki vətəndaş həlak olub, 400-dən artıq şəxs isə yaralanıb. Xüsusilə, Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə gecə saatlarında edilmiş və çoxsaylı mülki şəxslərin qətli ilə nəticələnmiş iki ballistik raket hücumu, habelə Bərdə şəhərinə digər 2 qeyri-insani və xain raket hücumunu qeyd etmək istərdim. Ermənistanın açıq-aydın müharibə cinayəti olan bu əməlləri Avropa Şurası daxil olmaqla, beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə qınanmalıdır".

Nazir diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın təcavüzünə cavab xarakterli əks-hücum tədbirlərini BMT Nizamnaməsinin 51-ci maddəsində göstərilən özünümüdafiə hüququ çərçivəsində aparır və bu xüsusda, beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinə sadiq qalır. Azərbaycan, sadəcə, Ermənistan qüvvələrinin işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 4 qətnaməsinin icrasına çalışır. Azərbaycan Avropa Şurası Parlament Assambleyasının 1416 (2005) və 1614 (2008) saylı qətnamələri BMT Təhlükəsizlik Şurasının bu qətnamələrinə əməl olunmasını tələb edir və öz ərazi bütövlüyünün bərpasına çağırır.

Ceyhun Bayramov bildirib ki, bu, Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan və erməni icmalarının sülh şəraitində birgəyaşayışının, eləcə də Avropa Şurasının iki üzv dövləti arasında davamlı sülhün və daha geniş bölgədə əmin-amanlığın bərqərar olunmasının ən qısa yoludur.

## "Bild" jurnalının department rəhbəri erməniləri ifşa etdi




Almaniyanın nüfuzlu "Bild" nəşrinin siyasət departamentinin baş redaktoru Julian Ropke özünün "Twitter" hesabında Ağdam şəhəri ilə bağlı fotoları-bu şəhərin 1991-ci ildə necə olduğunu və Ermənistan Silahlı Qüvvələrinin nəzarətinə keçdikdən sonra necə olduğunu göstərən şəkilləri paylaşıb.

"Ciddi deyirəm, əziz ermənilər, mənə "etnik təmizləmə" və "sizin Vətəni müdafiə etdiyiniz" haqda danışmağı dayandırın. Yüz minlərlə yerli insanın qovulduğu Azərbaycan ərazisində vuruşursunuz. Ağdam, etdiklərinizin ən parlaq nümunəsidir"- baş redaktor yazır. Ropke Ermənistan tərəfini "özünü bədbəxt qurban kimi" və özlərini "Azərbaycan hərbçilərinin onlara nə üçün hücum etdiyini başa düşməyən kimi" göstərməməyə çağırıb. "Siz onların torpaqlarında döyüşürsüz, onlar sizin deyil"- "Bild"in siyasət departamentinin baş redaktoru yazıb.

***Elçin Bayramlı***

## DTX: Döyüş zonasından video yayanlarla bağlı cinayət işi başlanıldı



Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-dən davam edən hərbi təxribatlarına qarşı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müvəffəqiyyətlə apardığı əks-hücum əməliyyatları nəticəsində bir neçə rayon, eləcə də strateji əhəmiyyətli ərazilər işğaldan azad edilmişdir.

SİA Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən xəbər verir ki, aidiyyəti dövlət orqanlarının həyata keçirdiyi dövlət sirrinin mühafizəsi tədbirlərinə zidd olaraq və müvafiq xəbərdarlıqlara baxmayaraq, döyüş əməliyyatları aparılan ərazilərdə bir sıra şəxslər tərəfindən mobil telefon aparatlarının texniki imkanlarından istifadə etməklə icazəsiz videoçəkilişlər edilmiş, Azərbaycan qoşunlarının strateji və əməliyyat planları, dislokasiyası və yerdəyişmələri, şəxsi heyəti, silah və hərbi texnikaları, digər döyüş təminatı, əməliyyat şəraiti barədə məlumatları əldə etməyə imkan verən müxtəlif videomateriallar yayılmışdır.

Qeyd olunan videogörüntülər düşmən ordusu tərəfindən Azərbaycan Respublikasının qoşun hissələrinin qüvvə və mövqeləri barədə informasiyanın əldə edilməsi, həmçinin kəşfiyyat-təxribat fəaliyyətinin həyata keçirilməsi məqsədləri üçün istifadə olunmuşdur. Aşkar edilmiş faktlar üzrə Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284-cü (dövlət sirrini yayma) maddəsi ilə cinayət işi başlanılmış, hazırda həmin şəxslərin cinayət əməlləri ilə bağlı istintaq aparılır. Bir daha vətəndaşlara fəal döyüş zonasından icazəsiz videoçəkilişlərin aparılmasının və yayılmasının cinayət məsuliyyətinə səbəb olduğu barədə xəbərdarlıq edilir, Azərbaycan əsgərinin həyatına təhlükə yaradan bütün davranışlardan çəkinməyə çağırılır.

## Müdafiə Nazirliyi: "Azərbaycanın hərbi qulluqçuları mülki əhali ilə davranış qaydalarına əməl edir"



Hər gün döyüşlərdə üzləşdiyi uğursuzluqlar, verdiyi çoxlu sayda itkilər və itirdiyi vacib mövqelər düşməni müxtəlif üsullara əl atmağa vadar edir. "Müharibədə bütün vasitələr yaxşıdır" prinsipindən irəli gələrək düşmən artıq Azərbaycan Ordusunun hərbi qulluqçularına qarşı böhtan və qarayaxma kampaniyasına başlayıb. Bu barədə Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən SİA-ya məlumat verilib.

Bildirilib ki, Ermənistan tərəfinin guya Azərbaycan hərbçilərinin Xocavənd rayonunun Tuğ kəndində hərbi cinayətlər törətməsi barədə iddiaları iftiradan başqa bir şey deyil: "Ali Baş Komandanın da vurğuladığı kimi "Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq". Məhz Ermənistan Gəncə və Bərdə şəhərlərinin dinc sakinlərini vəhşicəsinə raket atəşinə tutmaqla özünün əsl müharibə cinayəti törətdiyini bir daha sübut etdi. Bildiririk ki, Azərbaycan Ordusunun şəxsi heyəti Beynəlxalq humanitar hüququn əsası hesab edilən Cenevrə konvensiyası və digər normativ-hüquqi sənədlərinin tələblərinə riayət edir. Bu isə o deməkdir ki, döyüşlərdə iştirak edən hərbi qulluqçularımız mülki əhali ilə davranış qaydalarına əməl edir".

# İşğaldan azad edilmiş şəhər və kəndlərimiz

*Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 4-dək 4 şəhər, 3 qəsəbə və 199 kənd işğaldan azad edilib. İndiyədəkCəbrayıl şəhəri və rayonun 77 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 46 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 20kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 23 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad olunub. AZƏRTAC düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:*





**27 sentyabr**
* Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri
* Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri
* Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr**
* Tərtər rayonunun Suqovuşan və Talış kəndləri
* Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri
* Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**
* Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**
* Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr**
* Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi
* Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri
* Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri
* Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr**
* Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri
* Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**
* Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri
* Füzuli rayonunun Arış kəndi
* Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr**
* Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**
* Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**
* Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**
* Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**
* Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri vəZəngilan şəhəri
* Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri
* Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri
* Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**
* Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri
* Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri
* Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**
* Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi
* Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri
* Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**
* Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri
* Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri
* Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
* Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**
* Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri
* Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri
* Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**
* Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri
* Füzuli rayonunun Mandılı kəndi
* Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri
* Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**
* Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri
* Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri
* Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**
* Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri
* Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri
* Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**
* Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri
* Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri
* Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

## Düşmənin zenit qurğusu məhv edilib



Azərbaycan Ordusunun bölmələri düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlərini davam etdirirlər. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 3-də günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilib.

Qeyd edək ki, 1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 millimetrlik üç topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

## "Voltairenet" portalı: Paşinyan müharibədən istifadə edərək müxalifəti neytrallaşdırır




"Voltairenet" portalında "Nikol Paşinyan müxalifəti neytrallaşdırır" sərlövhəli yazı dərc olunub. AZƏRTAC xəbər verir ki, yazıda 2018-ci ilin mayında Corc Soros fondunun dəstəyi ilə təşkil olunan dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn Ermənistanın baş naziri Nikol Paşinyanın müharibədən istifadə edərək müxalifəti neytrallaşdırdığı bildirilir.

Qeyd olunur ki, o, bu məqsədlə Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru (2018-2019) və müxalifətin lideri general Artur Vanetsyanın cəbhədə həbs olunması əmrini verib. Vurğulanır ki, Corc Sorosun tərəfdarları onu xaricə casusluq etməkdə günahlandırırlar.

## Daha bir erməni generalı öldü



Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sədr müavini, general-mayor Qriqori Qareginoviç Qriqoryan ölüb. Bu barədə erməni mediası məlumat yayıb. Onun koronavirus infeksiyasından öldüyü bildirilir.

# Azərbaycanın müasir hərbi texnologiyası beynəlxalq siyasi ekspertlərin gözündə









***Azərbaycan ordusu döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində nəzərdə tutulan uğurlara nail olmuşdur. Artıq Azərbaycan ordusu ən müasir texnoloji, taktiki, intellektual, fiziki-psixoloji, maddi-texniki, mənəvi üstünlüyünü və müasir döyüş texnikasını döyüş meydanında qətiyyətlə nümayiş etdirir.***

Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq, sentyabrın 27-də başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində indiyədək düşmənin xeyli sayda döyüş texnikası, on mindən artıq canlı qüvvəsi, müasir hərbi raket kompleksləri məhv edilərək sıradan çıxarılıb, bir hissəsi də qənimət kimi götürülüb və 25 mindən artıq döyüşçüsü yaralanaraq döyüş qabiliyyətini itirib. Düşmənin hərbi texniki və döyüş vasitələrinin maddi itkiləri təxminən 3,3 milyard dollar qiymətləndirilir. Ermənistanın maliyyə naziri Canquzanyanın hesablamalarına görə Ermənistanın iqtisadiyyatına bu 39 gün ərzində 1 milyard 170 milyon dollar zərər dəyib. Hərbi əməliyyatlardan əvvəl də sosial-iqtisadi vəziyyəti xeyli ağır olan Ermənistana bu hərbi və iqtisadi ziyanın bərpası üçün 25 il vaxt lazım olacağı proqnozlaşdırılır. Azərbaycan ordusunun uğurları nəticəsində dünya ölkələrinin nüfuzlu insanlarının, bir sıra siyasi ekspertlərin, politoloqların Qarabağ münaqişəsinə olan fikirlərini qeyd etmək olar.

Rusiyalı politoloq: "Azərbaycan müharibəni udacaq"

"Müharibə Azərbaycan ərazisində gedir. Bütün dünya, o cümlədən BMT tərəfindən Dağlıq Qarabağ və ətrafı Azərbaycan ərazisi hesab olunur. Prinsipcə, hüquqi və siyasi cəhətdən bu müharibədə heç kəs Azərbaycanın haqqını şübhə altına ala bilməz".

Moskva müxbirinə müsahibəsində rusiyalı politoloq, tarix elmlər doktoru Aleksandr Sıtin deyib: "Böyük ehtimalla Azərbaycan müharibəni udacaq və Dağlıq Qarabağı yenidən öz ərazisinə qatacaq". A. Sıtin Azərbaycanın İkinci Qarabağ müharibəsi zamanı cəbhədə göstərdiyi hərbi üstünlüklərdən də danışıb: "Mən Azərbaycanın bu müharibədə göstərdiyi iki şeyə heyranam. Birincisi, Azərbaycan bu 30 il ərzində, heç kəsə heç nə demədən yüksək döyüş qabiliyyətli ordu yarada bilib. İkincisi, əlbəttə ki, Azərbaycanın siyasi qərarlar səviyyəsində bütün hərbi əməliyyatların ancaq Qarabağ ərazisində aparılmasına nail olmasıdır. Bu, sözsüz ki, böyük layiqli işdir".

Rusiyalı politoloq Maksim Şevçenko: "Azərbaycan Ordusu ölkənin suverenliyini bərpa edəcək"

"Azərbaycan Ordusunun uğurlarını fövqəladə hesab edirəm. Azərbaycan Ordusu Vətən torpaqlarını xarici işğalçılardan get-gedə təmizləyərək Qarabağ düyününü də açmağa doğru gedir". Rusiya bürosuna açıqlamasında rusiyalı jurnalist və politoloq Maksim Şevçenko dilə gətirib.

Rusiyalı politoloq Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etmək gücündə olduğunu dilə gətirib: "Fikrimcə, Azərbaycan Ordusu ölkəsinin suverenliyini tam şəkildə bərpa etməklə dövlət sərhədinə çıxıb onu bütövlükdə nəzarətə götürəcək. Sərhədin qarşı tərəfində isə Ermənistanda yerləşdirilən rusiyalı sərhədçilər duracaq. Bundan sonra da, çox güman ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına başlamaq, sülh sazişi imzalamaq, Azərbaycanın sərhədlərini təsdiqləməklə iki xalq arasında əməkdaşlığın təməlini qoymaq lazım gələcək".

Rusiyanın Milli Müdafiə jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko deyib. "Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli var. Bunu əslində Azərbaycan Ordusu hazırda sübut edir".

Rusiyalı analitik Yevgeni Krutikov: "Ermənilər "biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik" əfsanəsi ilə yatıb-dururdular.

Rusiyanın "Vzqlyad.ru" nəşri Dağlıq Qarabağda hərbi əməliyyatların başlanmasından ötən bir ay ərzində Ermənistan qoşunlarının məğlubiyyətinin səbəblərini araşdırıb. Yevgeni Krutikovun müəllifi olduğu materialda artıq Ermənistan ordusunun geri çəkildiyi vurğulanır. Qeyd olunur ki, Azərbaycan ordusu Dağlıq Qarabağda müdafiə xəttini yararaq irəliləyib və hazırkı vəziyyət Ermənistan qoşunlarının strateji məğlubiyyətindən danışmağa imkan verir. Müəllif Ermənistan və "DQR"-in kəşfiyyat strukturlarının səriştəsizliyini diqqətə çatdıraraq yazır ki, Azərbaycan artıq yay aylarından Dağlıq Qarabağla sərhədə iki döyüş korpusunu və döyüş qabiliyyətli hissələrini cəmləmişdirmişdi. Qoşunların təmas xəttinə yaxın ərazilərdə anbarlar tikilir, təchizat sistemləri çəkilirdi. Ermənistan kəşfiyyatı nə bu, nə də Azərbaycanın çoxlu sayda silah alması barədə də rəhbərliyə düzgün məlumatlar verməmişdi.

Yevgeni Krutikovun fikrincə, ermənilər 1990-cı illərin əvvəllərində qazandıqları uğurların psixoloji təsirindən çıxa bilmirlər. Azərbaycan ordusunun kəmiyyət və keyfiyyət baxımından üstünlüyünə baxmayaraq, ermənilər "biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik" əfsanəsi ilə yatıb-dururdular. Paşinyanın rəhbərliyi dövründə Ermənistan kəşfiyyatının 3 rəhbəri vəzifəsindən azad edilmişdi və tanınmamış "DQR" bəzi rəhbərləri "ruslar bizə lazım deyillər, biz onlarsız da Bakıya piyada gedib çıxarıq" deyirdilər.

Materialda deyilir ki, "DQR"-in hava hücumundan müdafiə sistemləri "OSA", "Kruq" və "KUB" komplekslərindən ibarətdir. Lakin Azərbaycan İsrail və Türkiyə istehsalı olan PUA-lar aldıqdan sonra bütün bu yaxınradiuslu köhnəlmiş sistemlər artıq heç nəyə yaramır. Dağlıq Qarabağda hava hücumundan müdafiə sistemləri (HHMS) az, Azərbaycanın PUA-ları isə çoxdur. Üstəlik də Azərbaycan ordusu ermənilərin HHMS-lərini raketlər və uzaqmənzilli artilleriya ilə sıradan çıxarıb. Ermənistan bu sahədə Azərbaycanla rəqabət apara bilmir. Yerevanın PUA-sının az olması, hətta olmaması da demək olar ki, Azərbaycanın batalyon taktiki qruplarına, az qala, paraddakı kimi hərəkət etmək imkanı verir.

Müəllif Dağlıq Qarabağın 25 il əvvəl qurulmuş müdafiə sisteminə arxalandığını, lakin bu illər ərzində Azərbaycan ordusunun xeyli inkişaf etdiyini nəzərə almadığını vurğulayır. Azərbaycan qoşunlarının Laçının təxminən 5-10 kilometrliyində olduğunu və Laçın dəhlizinin itirilməsinin ermənilər üçün artıq strateji fəlakət olduğunu yazan rusiyalı analitik qeyd edir ki, onsuz da cəbhənin cənubunda xeyli ərazinin itirilməsi ermənilər üçün ciddi siyasi və mənəvi məğlubiyyətdir. Məhz cənub istiqamətdə irəliləyişi rəsmi Bakı bir aylıq döyüşlərdə özünün mühüm qələbəsi və əsas siyasi nailiyyəti hesab edə bilər. Xəritəyə baxarkən, Azərbaycanın mərkəzdən zərbə endirəcəyi, Qarqarçay boyunca irəliləyərək, Ağdamdan və Xocalıdan keçərək Xankəndinə çıxacağını düşünmək olardı. Elə ermənilər də 25 il ərzində məhz bu zonada müdafiəni bərkitmişdilər. Lakin Azərbaycan ordusu bu zonada hücuma keçmədi. Taktiki manevrlər edərək digər istiqamətlərdən yəni işğal olunmuş başqa rayonların ərazilərindən irəliləyərək düşmənin illərdir möhkəmlətdiyi istehkamları darmadağın etdi. Mərkəzdə yalnız qarşılıqlı artilleriya atışmaları müşahidə olunur. Buna görə də ermənilər mərkəzdə böyük canlı qüvvə saxlamağa məcburdurlar.

Əməliyyat təşəbbüsü tamamilə Azərbaycan tərəfindədir və Azərbaycan ordusu bütün cəbhə boyunca qüvvələrin yerini dəyişə, yeni planlar həyata keçirə, ehtiyat qüvvə gətirə bilir. Ermənilər isə cənubda "təhlükəsizlik kəməri"ni əldən verəndən sonra əks-hücum barədə düşünə belə bilmirlər. Bütövlükdə, bütün bunlar Ermənistan üçün siyasi sondur. Ermənilər indi yalnız passiv müdafiəyə hazırdırlar. Ermənilərin Qarabağda hərbi revanşın Azərbaycanın əsas milli strategiyası olduğunu da nəzər almadıqlarını qeyd etmək olar. Bu səbəbdən Ermənistan hakimiyyətinə qarşı onun yürütdüyü strategiyaya qarşı nüfuzlu şəxslərdən etirazlar səslənir.

Ermənistanın Milli Demokratik Birlik Partiyasının sədri Vazgen Manukyan ölkənin baş naziri Nikol Paşinyanı istefa verməyə çağırıb. "Bu hökumət istefaya getməli və bütün gücü orduya təhvil verməlidir",- deyə edilən çağırışda bildirilir ki, sadəcə Qarabağ deyil, Ermənistanın dövlətçilik maraqları da təhlükədədir. Manukyan hətta xam xəyallara qapılaraq, ölkəsinin çıxılmaz vəziyyətinin düzələcəyinə də ümid etdiyini bildirib: "Vəziyyəti düzəldə bilərik, amma mövcud hakimiyyətlə deyil".

Rusiyada yaşayan erməni milyonçu, "Monarx" şirkətinin baş direktoru, texniki elmlər doktoru Sergey Ambartsumyan Ermənistan Baş naziri Nikol Paşinyana açıq məktubla müraciət edib. Erməni mediasında yayılan məktub ölkədəki vəziyyəti tam aydınlaşdırmaqla bərabər, cəmiyyətdə böyük rezonans doğurub.

"Dalandan çıxmaq üçün variant" adı ilə yayılan müraciətdə Ambartsumyan Paşinyana müraciətlə qeyd edib ki, 2018-ci ildə xalq heç də sənin xidmətlərinə görə deyil, əvvəlki hakimiyyətə səmimi etiraza görə ardınca gedib: "Onlar daha ədalətli və perspektivli dünyada, xoş və işıqlı aurada yaşamaq üçün sizin ardınıza getdilər və əminəm ki, siz də buna inanırdınız. Mən hakim deyiləm və son 5 ildə baş verənləri qiymətləndirməyə hazırlaşmıram - buna daha sonra xalq qiymət verəcək. Ancaq siz təsdiqləyə bilərsiniz ki, bütün xalq artıq bizim çıxılmaz vəziyyətdə olduğumuzu, tam krizis durumuna düşdüyümüzü görür".

Ardı Səh. 7

# Azərbaycanın müasir hərbi texnologiyası beynəlxalq siyasi ekspertlərin gözündə

Əvvəli-Səh-6

1992-ci ildə də ağır vəziyyətə düşdüklərini, buna baxmayaraq, "qalib gəldiklərini" xatırladan Ambartsumyan Rusiyasız heç nəyi həll etməyin mümkün olmadığını bildirib. Ona görə də şirkət direktoru təklif edib ki, Paşinyan təcili vəzifədən getməli və hakimiyyəti Rusiyanın etibar etdiyi şəxsə verməlidir. "Tam dəqiqdir ki, Ermənistanın hazırda düşdüyü ciddi problemləri siz həll etmək imkanında deyilsiniz. Siz hakimiyyəti kritik situasiyada xalqı konsolidasiya edə bilən liderə verməlisiniz".

Qeyd edək ki, məktubun erməni rəsmi mediasında da dərc edilməsi artıq hakimiyyət böhranının və ölkənin çıxılmaz duruma düşməsinin etirafı kimi qəbul olunur. Hazırda Ermənistanda ciddi şəkildə müzakirə edilən məsələlərdən biri də Paşinyanın hakimiyyəti hərbçilərə təhvil verməsidir. Bu isə ordu rəhbərliyində hərbi çevriliş hazırlığı haqda məlumatların yayılmasına səbəb olub. Nikol Paşinyanın hüquq-mühafizə orqanları, o cümlədən təhlükəsizlik xidməti rəhbərliyindən bir neçə nəfəri istefaya göndərməsi də bununla əlaqədardır.

Oktyabrın 8-də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəisi Argişti Kərəmyan tutduğu vəzifədən kənarlaşdırılıb. Oktyabrın 26-da Ermənistan Milli Təhlükəsizlik Xidmətinə tabe olan Sərhəd Qoşunlarının komandanı Vaqinak Sarkisyan da işdən azad edilib. Həmçinin oktyabrın 27-də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Əks-kəşfiyyat İdarəsinin rəisi, general-mayor Ohannes Karumyan işdən çıxarılıb. Eyni gündə Sərhəd Qoşunlarının qərargah rəisi Qagik Tevosyan eyni taleyi yaşamalı olub. Onların hamısı xəyanətdə ittiham edilir. Ehtimal edilir ki, Paşinyan hökuməti həm də bu yolla cəbhədəki uğursuzluqları ayrı-ayrı vəzifəli şəxslərin ayağına yazıb sudan quru çıxmaq niyyətindədir. Hərbi məğlubiyyətin fakturasını qurban seçilmiş günah keçilərinə yükləməklə vəziyyətdən çıxmağa çalışan Nikol Paşinyan bu vaxta kimi eyni metoddan dəfələrlə istifadə edib inqilab zamanı verdiyi vədləri yerinə yetirə bilmədikdə müxtəlif sahələrdə vaxtaşırı kadr dəyişiklikləri həyata keçirsə də, bu dəfə istənilən nəticəni əldə etməsi və nişangahdan yayınmağa müvəffəq olması müşkül məsələdir. Çünki müharibənin hərbi-siyasi rəhbərliyini məhz Nikol Paşinyan həyata keçirir və bütün məsuliyyət də şəxsən ona məxsusdur.

Əksinə, bu kimi kadr dəyişiklikləri və xəyanət ittihamları Ermənistanda əhalinin dövlətə qarşı inamsızlığını artırmaqdadır, hakimiyyətin, xüsusilə hərbi komandanlıq və siyasi rəhbərliyin monolitliyi ciddi və əsaslı şübhələr altına düşüb və komandadaxili parçalanma effekti yaradıb. Bütün bunlar isə məğlubluq sindromuna düçar olmuş Ermənistan cəmiyyətində mənəvi durumu və psixoloji əhval-ruhiyyəni daha da sarsıdır, onsuz da, kövrək olan həmrəyliyi baltalayır. Ölkə daxilində ictimai-siyasi vəziyyət getdikcə mürəkkəbləşir.

Hərc-mərclik və tabesizliyin yayıldığı belə bir şəraitdə fərrarilik halları geniş vüsət alıb. Ermənistanda itaətsizlik o həddə çatıb ki, artıq insanlar evlərindən silah gücünə hərbi komissarlıqlara və döyüşə aparılır. Hakimiyyətə qarşı kütləvi vətəndaş itaətsizliyi və fərarilik Nikol Paşinyanı Ermənistanın Ədliyyə nazirinin müavini Vahe Danielyanı belə oktyabın 28-də vəzifəsindən azad edərək maaşını saxlamaqla cəhbəyə göndərməyə sövq edib. Lakin bu da baş verənlərin qarşısını almağa kömək etmir. Görünür, bu adla Vahe Danielyanın vəzifəsindən uzaqlaşdırılması həm də fərarilərə qarşı ədliyyə orqanlarının tədbirlər görə bilməməsi ilə bağlıdır, bu yolla Paşinyan hakimiyyət nümayəndələrini cəzalandırmağa çalışır. Belə nəticəyə gəlmək olar ki, Paşinyan hərbi çevrilişdən çox narahatdır.



Fransanın "Voltairenet" portalı: Paşinyan müharibədən istifadə edərək müxalifəti neytrallaşdırır

"Voltairenet" portalında "Nikol Paşinyan müxalifəti neytrallaşdırır" sərlövhəli yazı dərc olunub. Yazıda 2018-ci ilin mayında Corc Soros fondunun dəstəyi ilə təşkil olunan dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn Ermənistanın baş naziri Nikol Paşinyanın müharibədən istifadə edərək müxalifəti neytrallaşdırdığı bildirilir. Qeyd olunur ki, o, bu məqsədlə Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru (2018-2019) və müxalifətin lideri general Artur Vanetsyanın cəbhədə həbs olunması əmrini verib. Vurğulanır ki, Corc Sorosun tərəfdarları onu xaricə casusluq etməkdə günahlandırırlar. Ermənistanın "Adekvad" hərəkatının təsisçisi Konstantin Ter-Nakalyan belə deyir ki, "Erməni xalqı boş ümidlərə qapılmasın. Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri qarşısında dayana bilməz".

"Azərbaycanın ərazi bütövlüyü tanınmalıdır. Başqa yol yoxdur!"

Bu sözləri Rossiya-1 telekanalında yayımlanan "Vladimir Solovyovla axşam" verilişinin efirində erməni əsilli rusiyalı kinorejissor, Rusiyanın Xalq artisti Karen Şahnazarov deyib.

Şahnazarov çıxışı zamanı Ermənistan rəhbərliyini reallığa uyğun addımlar atmamaqda, illüziyalara qapılmaqda və vəziyyəti düzgün qiymətləndirməməkdə günahlandırıb: "Ermənistan Azərbaycanın ərazi bütövlüyü məsələsini diqqətə almalıdır. Təəssüf ki, bütün bu baş verənlər Ermənistan rəhbərliyinin düşünülməmiş atılan addımlarının nəticəsidir. Vəziyyət elədir ki, istəristəməz Azərbaycanın ərazi bütövlüyü məsələsini qəbul etmək və hər hansı bir status üçün imkan axtarmaq lazımdır. Hansı ki, erməni əhalisinin bu bölgədə təhlükəsizliyini, yaşayışını və mədəni inkişafını təmin eləsin. Başqa çıxış yolu yoxdur. Ermənistan cəmiyyətində hökm sürən bəzi illüziyalar var, məsələn, "Biz İsrailik" illüziyası. İsraildə tamam başqa vəziyyətdir. Birincisi, İsrail qat-qat güclüdür. İkincisi, yəhudi diasporu erməni diasporundan qat-qat nüfuzludur".

Kinorejissor qeyd edib ki, Rusiyanın hazırkı münaqişəyə müdaxilə etməyə heç bir əsası yoxdur: "Qarabağı Abxaziya, Cənubi Osetiya və Donbassla müqayisə etmək olmaz. Onlar Rusiya ilə sərhəddirlər. Qarabağ Azərbaycan ərazisində yerləşir. Bundan əlavə sözügedən 2 rayon da Azərbaycana aiddir. Hər halda 7 rayon qaytarılsa, Qarabağ nə edəcək?! Bu gün Rusiyanın bu məsələyə qarışması üçün heç bir real hüquqi imkanı yoxdur".

Rusiyalı ekspert: "Paşinyan rejiminə haqlı olaraq faşist deyirlər"

"Paşinyan rejimi tam əsasla faşist adına layiqdir. Cəbhədə müvafiq qaydada cavab verə bilməyən erməni hərbçiləri Azərbaycanın dinc əhalisinə alçaq zərbələr endirirlər".

Rusiya bürosuna verdiyi açıqlamada rusiyalı ekspert, beynəlxalq münaqişələrə dair mütəxəssis Yevgeni Mixaylov Ermənistan ordusunun Bərdə şəhərinə raket hücumları nəticəsində 21 dinc sakinin həlak olmasını, 70 nəfərin xəsarət almasını şərh edərkən dilə gətirib.

"Yerevanın bu münaqişəyə KTMT-ni də dartıb çəkmək cəhdləri adamı məyus edir. Belə ki, Ermənistan ərazisindən dinc məskənləri atəşə tutmaqla Paşinyan və onun adamları öz ərazilərinə qarşı cavab zərbələrə nail olub özlərini müdafiə etmək bəhanəsilə üçüncü tərəfi cəlb etməyi hədəfləyirlər", - deyən ekspert bu kimi davranışların bağışlanmaz olduğunu deyib: "İndi cavab tədbirlərə qarşı tərəf kütləvi şəkildə zərərsizləşdirilməlidir. Yəni yalnız Azərbaycanın dinc əhalisi arasındakı itkiləri dəfələrlə üstələyən tələfatla üzləşmək qorxusu hər hansı təxribatların qarşısını ala bilər".

Akira Matsunaqa: "Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməlidir"

Ermənistan ordusu uzun illərdir ki, işğal altında saxladığı Dağlıq Qarabağı və Azərbaycanın digər ərazilərini dərhal və qeyd-şərtsiz olaraq tərk etməlidir. Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində Tokio Universitetinin professoru Akira Matsunaqa deyib. Ermənistan ilə Azərbaycan arasında artıq bir aydır davam edən qızğın döyüşlərə münasibət bildirən yapon professor qeyd edib ki, münaqişənin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Məhz Ermənistan ordusu sentyabrın 27-də atəşkəs barədə razılaşmanı pozaraq Azərbaycan ərazisində təxribatlar törədib. Müharibənin gedişində Rusiya və ABŞ-ın vasitəçiliyə ilə əldə edilən üç humanitar atəşkəsin pozulmasının günahkarı da Ermənistandır. Hər üç halda Ermənistan raketlərdən istifadə edərək Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhərlərinə hücum edib. Professor deyib: "Düşünürəm ki, beynəlxalq ictimaiyyət Ermənistanın uşaqların və digər mülki şəxslərin ölümü ilə nəticələnən bu vəhşi, qeyri-insani hücumlarını pisləməli və bunun dayandırılmasına çalışmalıdır".

A.Matsunaqa vurğulayıb ki, Ermənistan dövləti artıq 30 ildir BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf əraziləri işğal altında saxlayır. Ermənistan təcili olaraq, həmçinin heç bir şərt irəli sürmədən bu torpaqları tərk etməlidir. Yaponiya hökumətinin münaqişəyə münasibətini bildirən yapon professor qeyd edib ki, Yaponiya Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həllini və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

İndoneziya parlamentinin nümayəndələr palatasının parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon: "Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarından çıxmasını tələb edir. Azərbaycan da daxil olmaqla, hər hansı dövlətin suverenliyinə və ərazi bütövlüyünə qarşı təcavüz qəbuledilməz və əsassızdır"

Britaniya parlamentinin Lordlar Palatasının üzvü: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir

Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Malkolm Brus bu ölkənin Xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Dominik Raaba məktub ünvanlayıb.

O, məktubunda Dağlıq Qarabağ münaqişəsinin daha da gərginləşməsindən narahatlığını ifadə edərək, Böyük Britaniya hökumətini problemin həlli yollarının axtarılmasında dünya birliyi ilə əməkdaşlığa çağırıb.

Məktubda deyilir: "Mətbuatda tez-tez "mübahisəli" kimi təsvir edilən həmin ərazi Azərbaycanın ayrılmaz hissəsidir. 1988-ci ilə qədər ermənilərin azərbaycanlılarla birlikdə yaşadığı və Azərbaycanın ərazisi olan Dağlıq Qarabağ uğrunda iki həftə davam edən şiddətli döyüşlərdən sonra atəşkəs razılaşması əldə olunub. Həmin vaxtda yerli erməni əhalisi erməni millətçilərinin təhriki ilə Dağlıq Qarabağın Ermənistana birləşməsi tələblərini səsləndirməyə başlayıb. 1991-ci ildə Dağlıq Qarabağ erməniləri qanunsuz olaraq "müstəqil" qondarma "Dağlıq Qarabağ respublikası"nın yaradılmasına razı oldular. Nəticədə yüz minlərlə azərbaycanlı vətəndaşın qaçqın və məcburi köçkün halına düşməsinə səbəb olan ağır silahlı toqquşmalar baş verdi".

Qeyd olunur ki, Ermənistan Dağlıq Qarabağdakı erməniləri dəstəkləsə də, o, bu ərazini Azərbaycanın ərazisi kimi tanıyır. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Dağlıq Qarabağdan və onun ətrafındakı işğal olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, 26 ildir ki, vəziyyət demək olar dəyişməz qalıb. "Oktyabrın 10-da Azərbaycan ilə Ermənistan arasında hər iki tərəfin əsir və cəsədlərinin mübadiləsinə icazə verilməsi üçün əldə edilmiş humanitar atəşkəs razılaşmasının pozulması, oktyabrın 11-də Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə və döyüş zonasından tamamilə kənarda yerləşən digər şəhərlərinin Ermənistan tərəfindən raket hücumuna məruz qalması xəbərləri məni çox kədərləndirir və narahat edir. Nəticədə uşaqlar da daxil olmaqla, mülki şəxslər qətlə yetirilib və yaralanıb", - deyə məktubda vurğulayıb.

Etnik erməni azlıqların hüquqlarını qorumaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünü tanıyan qətnamənin qəbul edilməsinin vaxtının çatdığını bildirən Lord Malkolm Brus yazıb: "Beynəlxalq səviyyədə əldə olunmuş atəşkəs yalnız münaqişənin uzadılmasına xidmət edir. Azərbaycanda işləyən və azərbaycanlılarla birgə iş təcrübəsi olan biri kimi əminliklə deyə bilərəm ki, Azərbaycan çox dinc və tolerant insanları olan dünyəvi dövlətdir. Azərbaycanda ləzgilər, talışlar, kürdlər, ruslar və yəhudilər də daxil olmaqla, bir çox etnik azlıqlar birgə yaşayırlar. Həqiqətən də bu ölkədəki yəhudilər əsrlər boyu Azərbaycan müsəlmanları ilə heç bir münaqişə və ya narahatlıq ilə üzləşməyiblər. Azərbaycan böyük bir yəhudi icmasının məskunlaşdığı nadir müsəlman ölkəsidir".

"Mən BMT-nin qəbul etdiyi qətnamələrə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpası və davamlı atəşkəsə, sülhə nail olmaq məqsədilə Böyük Britaniya hökumətini öz nüfuzundan istifadə etməyə çağırıram", - deyə Lord Malkolm Brus məktubunda vurğulayıb.

Bütün bu ölkələrin nüfuzlu şəxslərinin söylədikləri əsaslı və faktı fikirləri bir daha sübut edir ki, Ermənistan Azərbaycana qarşı ədalətsiz bir müharibə başladıb. Ancaq görünən odur ki, Ermənistan tamamilə dünyanın gözündə həm iqtisadi, həm siyasi, həm də hərbi cəhətdən Azərbaycan dövlətinin qarşısında acizdir. Bunu özümüz şərh etmirik, bunu xarici ölkələrin tanınmış siyasi ekspertləri təsdiq edir. Beləliklə bu müharibənin sonu Ermənistanı bəlli bir sona, yəni, hakimiyyət böhranına, sonra siyasi böhrana və daxili qarşıdurma yaradacaq ehtimalı artırır.

***Resurs Analitik İnformasiya Mərkəzinin mətbuat xidməti***

# Prezidentə yazırlar: "Siz xal
# Azərbaycan tarixində misli görün




***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Onlar Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sevinc hisslərini paylaşır, dövlətimizin başçısını təbrik edir və minnətdarlıqlarını bildirirlər.***

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən Gürbüz Turğay yazır: "Hörmətli cənab Prezident, mənim 68 yaşım var. Hələ keçən əsrin 70-ci illərində tələbə olarkən türk dünyasında baş verənlərlə maraqlanır, çətinlikdə olan qardaşlarımız üçün dualar edirdim. Həmin illər ən çox dinlədiyim Zeynəb Xanlarovanın mahnıları idi. Həmin musiqiləri dinləyərək Azərbaycandakı qardaşlarımı düşünürdüm. Bu illər ərzində həkimlik oxudum, baş həkim dərəcəsinə qədər yüksəldim. Həmişə Azərbaycan bayrağını Türkiyə bayrağı ilə yanaşı asdım. İllər bu həsrətlə keçirdi. Nəhayət, müjdəli xəbərlər aldıq. Azərbaycan müstəqillik qazandı. Azadlığa yeni qovuşmuş qardaş ölkəmizin həmin illər maddi, iqtisadi sıxıntıları var idi. İşlədiyim xəstəxanada ilk ianəni verməklə yardım kampaniyasına başladım. Topladığım pulları o vaxt Ankarada işləyən azərbaycanlı tanışımla qardaş ölkəyə göndərdim. Bu fəaliyyətimlə qürur duyurdum. Əminəm ki, gələcəkdə də övladlarım bununla qürur duyacaq. Şükürlər olsun ki, Allah indi yaşadığımız bu günləri də mənə qismət etdi. Hər gün verdiyiniz yeni-yeni müjdələri həyəcanla izləyirəm. Hörmətli və əziz Prezidentim, övladlarıma da daim bəhs etdiyim çətin günlər, şükür olsun ki, arxada qaldı. Artıq ölkənizin heç nəyə ehtiyacı yoxdur, güclüsünüz, zirvədəsiniz. Tanklarınızdan atılan mərmiləri böyük qürurla və sevinclə izləyirəm, çünki onlar ürəyimdə illərlə yaşayan kini, nisgili, ağrı-acını silib aparır. Ürəyim daim Sizinlə, azərbaycanlı qardaşlarımladır. Sizdən eşidəcəyim qələbə xəbəri mənimlə yanaşı, illərlə ürəyində həsrət gəzdirən insanların nisgilinə də son qoyacaq. Dualarımız Sizinlədir. Allah yardımçınız olsun".

Antalya şəhərindən Alperen Gökbulut yazır: "Hörmətli cənab Prezident İlham Əliyev, mənim 13 yaşım var. Böyüyəndə əsgər olmaq istəyirəm. Zatən hər bir türk artıq doğulandan əsgərdir. Ermənistanın torpaqlarınızı işğal etməsi barədə məlumatım var. Bütün türk xalqı, həmçinin mən bu savaşda hər zaman yanınızdayıq. Mən "PlayStation" almaq üçün topladığım 40 lirəni böyük məmnuniyyətlə Azərbaycan əsgərlərinin fonduna göndərirəm. Könlüm ordunuzun əsgərləri üçün daha böyük işlər görmək istəyir, lakin hələlik əlimdən gələn budur. Tək istədiyim Qarabağın işğaldan azad olunması və onun hər guşəsində Azərbaycan bayrağının dalğalanması, Mübariz İbrahimovun ruhunun şad olmasıdır".

İranın Təbriz şəhərindən Araz Əzimlinin məktubunda deyilir: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Siz hamımızın fəxrimiz, qürurumuzsunuz. Mən Təbriz şəhərindənəm. İranda yaşayan azərbaycanlılar Sizin qələbə xəbərləri verən çıxışlarınızı səbirsizliklə gözləyir, həyəcanla izləyir. Xarici müxbirlərin suallarına verdiyiniz dolğun cavablar bizi şərəfləndirir, qürur verir. Nə yaxşı ki varsınız. Allah yardımçınız olsun. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Yaşasın Prezidentimiz! Yaşasın Ordumuz! İnşallah, tezliklə Xankəndi, Şuşa ilə bağlı qələbə xəbərləri bizləri sevindirər".

Ankara şəhərindən Mesut Baltorpak: "Hörmətli cənab Prezident, qardaş ölkəmiz Azərbaycana Türkiyədən və türk xalqı adından sonsuz dəstəyimizi bildirərək Sizi dualarımızla salamlayırıq. Böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm. Acınız acımız, zəfəriniz zəfərimizdir. Mən və mənim kimi bir çox qardaşlarınız sizlərlə eyni cəbhədə düşmənə qarşı birlikdə vuruşmağa can atırıq, lazım gələrsə əsgəriniz kimi ikinci Vətən bildiyimiz Azərbaycanın müzəffər Ordusunda xidmət etməyə hazırıq. Allah yar və yardımçınız olsun!"

Bakı şəhərindən Amil Qafari yazır: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, cəzaçəkmə müəssisəsindən yazaraq bildirmək istəyirəm ki, 2009-2015-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında kiçik rəis heyətində polis serjantı rütbəsində qulluq etmişəm. İdmanın boks növü ilə məşğul olmuşam. Müzəffər Ali Baş Komandan, Sizin Fərmanınızla ölkədə qismən səfərbərlik elan edilmişdir. Başqa vətənpərvər gənclər kimi mən də silaha sarılıb torpaqlarımızın azadlığı uğrunda ümumi düşmənə qarşı vuruşmaq, son damla qanımadək canımdan keçmək, şəhidlik zirvəsinə yüksəlmək istəyirəm. Sağ qalacağım təqdirdə, mənə təyin olunmuş cəzanın çəkilməmiş hissəsini böyük qələbəmizdən sonra çəkməyə hazıram. Sizin etimadınızı doğruldacağıma, hərbi anda sadiq qalaraq bütün gücümü və bacarığımı Vətən naminə sərf edəcəyimə söz verirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Qazax rayonundan Cəfər Həsənov dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, mənim hazırda sevincimin həddi-hüdudu yoxdur. Sizi və Azərbaycan xalqını, rəşadətli ordumuzu qələbələr münasibətilə təbrik edirəm. Sizin daxili və xarici siyasətiniz və Azərbaycan xalqının iradəsi sayəsində mənfur düşmən tapdağı altında inildəyən torpaqlarımız işğaldan azad olunur. Sizin Ali Baş Komandanlığınız altında Azərbaycan Ordusu şanlı tarix yazır. Sayənizdə bizim olan, bizə qayıdır. Cənab Prezidentim, dilbər guşəmiz olan Şuşada qələbə paradının keçirilməsini və özümün də həmin paradda iştirak etməyimi arzulayıram. Yaşasın Azərbaycan Prezidenti! Yaşasın Azərbaycan xalqı! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

Paytaxt sakini Marat Amanov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Vətənimiz Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq bu şanlı günlərdə bütün xalqımız kimi məni də Sizin qətiyyətiniz səmimi qəlbdən sevindirir, ruhlandırır və fərəhləndirir. Bütün dünya Sizin uzaqgörən siyasətçi, möhtəşəm diplomat, qətiyyətli dövlət başçısı olduğunuzu bir daha gördü. Qələbələriniz daim olsun! Şübhəsiz ki, çox yaxın zamanda Sizin və ordumuzun qətiyyəti sayəsində bütün Qarabağ torpaqları işğaldan azad ediləcək. Allah Azərbaycanı qorusun! Eşq olsun şanlı və Müzəffər Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! Qələbə bizimdir!"

Samux rayon sakini Cavad Şahbazlı: "Hörmətli Prezident cənab İlham Əliyev, Sizinlə fəxr edirəm. Arzu edirəm ki, müharibəni tezliklə qələbə ilə başa vuraq. Bayrağımız Şuşada, Xankəndidə dalğalansın. Biz uşaqlar bir də müharibə görməyək. Əziz Prezidentimiz, Siz bir tarix yazdınız. Bu tarix gələcəkdə dərsliklərə salınacaq, məktəblilər tərəfindən çox böyük maraqla oxunacaq. Biz uşaqlar, həmçinin də mən Sizi çox sevirik. Qarabağ Azərbaycandır!"

# lqını sevən bir sərkərdə kimi məmiş qələbələrə imza atırsınız!”

Mingəçevir şəhər sakini Sənan Cəfərov: “Hörmətli cənab Prezident, Azərbaycanın bir vətəndaşı kimi, mən də döyüş bölgəsinə getmək üçün könüllü yazılmışam. Qarabağımızın azadlığı uğrunda əsgərlərimizlə çiyin-çiyinə döyüşmək istəyirəm. Hər zaman Sizin və qüdrətli Azərbaycan Ordusunun yanındayam. Mən fəxr edirəm ki, azərbaycanlıyam və Sizin kimi Prezidentimiz var. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Amin! Yaşasın Azərbaycan, Yaşasın Müzəffər Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!”

Saatlı rayon sakini Şahin Sadıqov: “Cənab Ali Baş Komandan, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan müharibənin ilk günündən bütün hadisələrin gedişini qürur hissi ilə izləyir və bir vətəndaş olaraq Sizinlə fəxr edirəm. Mən və övladım hər zaman Sizin əmrinizdəyik. Sizin televiziyadakı çıxışlarınızı izlədikcə bütün ailəmiz fərəh hissi keçirir, Prezidentimizlə qürur duyuruq. Cənab Ali Baş Komandan, bilin ki, xalqımız, millətimiz Sizi çox sevir. Biz hər zaman Sizin müsəlləh əsgərlərinizik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!”

Bakı şəhər sakini Oksana Pşeniçnaya: “Çox hörmətli Prezidentimiz İlham Əliyev.

Sizə dərin hörmət və minnətdarlıq hissi ilə bu məktubu yazan Mingəçevir şəhərində doğulub boya-başa çatmış Oksana Pşeniçnayadır. Əzəli Qarabağ torpaqlarımızı təcavüzkarlardan azad etdiyinizə görə Sizin və rəşadətli ordumuzun qarşısında baş əyirəm. Eyni zamanda, mənim sevimli və doğma şəhərim Mingəçevirin ayıq-sayıq qorunmasına görə Sizə minnətdaram. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!”

Gəncə sakini İlkin Məmmədov: “Salam cənab Prezident, ordumuzun uğurlu əməliyyatları nəticəsində azad edilmiş torpaqların şad xəbərini hər gün televiziya kanallarından eşidirəm və çox sevinirəm. Bu məktubu yazmağıma səbəb Sizə olan minnətdarlığımı bildirməkdir. Bu çətin günlərdə Siz bizim, bütün Azərbaycan xalqının arxasında dağ kimi durduğunuz kimi, biz də bütün Azərbaycan xalqı ilə Sizin arxanızdayıq. Mən Gəncə şəhərində anadan olmuşam və burada yaşayıram. Xalqımızın bu çətin imtahandan üzüağ çıxması üçün hər gün Allaha dua edirəm. Bir yandan koronavirusa qarşı mübarizə, bir yandan da əsgərlərimizin otuz ilin həsrətini bitirmək üçün cəbhədə mübarizə aparması ağır bir imtahandır. Amma hər kəs bilir ki, bu imtahandan başımız dik, üzümüz ağ çıxacağıq. Bu məktubu yazmağı özümə borc bildim”.

Neftçaladan Rahil Dadaşov: “Hörmətli cənab Prezident, biz Sizin komandanlığınızla Azərbaycan Ordusunun qələbələrinə sevinir və alqışlayırıq. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu erməni faşistlərini Azərbaycan torpaqlarından qovacaq. Xain erməni işğalçılarının bu torpaqlarda yaşamağa haqqı yoxdur. Qarabağ tarixi Azərbaycan torpağıdır. Bu çətin və məsuliyyətli işinizdə Sizə və Ordumuzun igid əsgərlərinə cansağlığı və yeni-yeni nailiyyətlər arzu edirəm. Bütün xalqımız Sizinlə qürur duyur və arxanızdadır. Yaşasın qəhrəman Azərbaycan Ordusu! Yaşasın qəhrəman Azərbaycan xalqı! Yaşasın Ali Baş Komandan!”

Bakı Ali Neft Məktəbinin Biznesin idarəolunması üzrə tədris mərkəzinin müdiri Rövşən Budaqov yazır: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, cari il sentyabrın 27-dən başlayaraq Sizin komandanlığınız altında rəşadətli Azərbaycan Ordusu işğal edilmiş torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması uğrunda mənfur düşmənə qarşı mübarizə aparmaqdadır. Biz əminik ki, xalqımızın qəhrəmanlıq tarixini, azadlıq və istiqlaliyyət mübarizəsini ifadə edən üçrəngli ay-ulduzlu bayrağımız tezliklə öz dədə-baba torpaqlarımızda dalğalanacaq. Bu gün Azərbaycan xalqı yumruq kimi birləşərək vətəndaşlıq borcunu yerinə yetirməkdədir. Sizin rəhbərliyinizlə şərəfli bir tarix yazılır və milyonlarla azərbaycanlının doğma yurd həsrətinə son qoyulur. Bu əməllərinizlə Siz qüdrətli Ali Baş Komandan olaraq yaddaşlarda əbədi həkk olunacaqsınız. Sizə güvənirik, Sizinlə qürur duyuruq. Əşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”

Sabirabad sakini Murad Yordanidze: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, bir axıska türkü olaraq Sizi və müzəffər ordumuzu Ermənistan silahlı qüvvələri ilə aparılan haqlı mübarizədə dəstəkləyirik. Düşmənləri iti qovan kimi qovur, erməni hökumətinin rəhbəri Paşinyana dərsini veririk. Tezliklə tam qələbə çalacağımıza inanıram. Allah Sizi və Birinci vitse-prezident Mehriban xanımı başımızın üzərindən əskik etməsin. Sizlərə cansağlığı, əsgərlərimizə güc-qüvvət arzulayıram. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Füzuli sakini Qəhrəman Şirinov: “Çox hörmətli əziz Prezidentimiz, mən Sizinlə fəxr edirəm, ona görə ki, Siz Ulu Öndərimizin layiqli davamçısısınız. Siz Azərbaycan xalqının ürəyində, qəlbində əbədi yer qazanmısınız. Uca Allah Sizi, xalqımızı, Ordumuzu qorusun! Ötən il məktubla Sizi ad günü münasibətilə təbrik edərkən bu şüarları demişdim: “Vətən uğrunda, İlham Əliyev uğrunda irəli!”. 2020-ci ilin sentyabr ayının 27-dən bu şüarla, qələbə əzmi ilə irəli gedirik. İnşallah, tez bir zamanda möhtərəm Prezidentimizin başçılığı ilə qələbə qazanacağıq və böyük qələbədən sonra Azərbaycanın tarixi yenidən Sizin adınızla qızıl hərflərlə yazılacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Ağdam sakini Eldar Rüstəmov: “Hörmətli cənab Prezident, Siz xalqını sevən bir sərkərdə kimi Azərbaycan tarixində misli görünməmiş qələbələrə imza atırsınız. Ağdam rayon sakinləri Sizinlə fəxr edir və daim dövlətimizin başında durmağınızı arzulayır. Bəzən ölkəmizin içəridən dağıldığı və məğlubiyyətə uğradılaraq torpaqlarımızın işğala məruz qoyulduğu vaxtlardan fərqli olaraq indi yumruq kimi sıx birləşmişik və Sizin müdrik siyasətinizlə dövlətimizi inkişaf etdiririk. Xalqımız buna görə Sizə minnətdarlıq edir. Təyin etdiyiniz kadrlar da layiqli hərəkətləri ilə əhalinin rəğbətini qazanır. Rayondakı nümayəndələriniz əhali ilə eyni vaxtda yatıb, eyni vaxtda durur, orduya hər bir köməklik göstərir və bütün tapşırıqlarınızı yerinə yetirirlər. Cənab Prezident, Sizin gələcəkdə görüləsi hələ çox işiniz var. Azərbaycan xalqı daim Sizə və ulu öndərimiz Heydər Əliyevə minnətdar olacaq. Sizə uzun ömür və cansağlığı arzulayıram! Qarabağ Azərbaycandır!”

Xocavənd sakini Əjdər Abdullayev: “Hörmətli cənab Prezident, əvvəla Sizi qazandığımız uğurlara görə təbrik edirəm. Sizə və bütün əsgərlərimizə bu şərəfli işinizdə cansağlığı və yeni-yeni müvəffəqiyyətlər arzu edirəm. Mənim iki oğlum hazırda cəbhə bölgəsində xidmət edir. Allah bütün əsgərləri, o cümlədən övladlarımın yardımçısı olsun! Ata-baba yurdum erməni işğalından azad edildiyi üçün sevincimin həddi-hüdudu yoxdur. Buna görə Sizə minnətdaram, cənab Prezident. Hər zaman Sizə və ordumuza dəstək olmağa hazırıq. İnşallah, tezliklə qalib gələcəyimizə bütün qəlbimizlə inanırıq. Allah Sizi və Ordumuzu qorusun!”

## Necdət Ünüvar: Rəşadətli Azərbaycan Ordusu ən qısa zamanda öz məqsədinə çatacaq



Bütün qəlbimizlə Azərbaycanın yanındayıq. Azərbaycanın haqlı mübarizəsinə siyasi, mənəvi dəstək vermək borcumuzdur. Ötən günlərdə bütün dünya gördü ki, rəşadətli Azərbaycan Ordusu böyük gücə qadirdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası və yurd-yuvasından didərgin düşən azərbaycanlıların öz evlərinə dönməsi arzumuz, istəyimiz və tələbimizdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri, Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar ifadə edib. Şanlı Azərbaycan Ordusunun ən qısa zamanda Qarabağı və işğal altındakı digər əraziləri düşməndən azad edəcəyinə əminliyini ifadə edən rektor Necdət Ünüvar deyib: “Bir millət, iki dövlət olmağımız düşüncəmizdə və əməlimizdə reallığı göstərən gerçəklikdir. Qarabağ məsələsində hər zaman Azərbaycanla həmrəy olmuşuq. Ən yaxın zamanda qələbə xəbərləri gözləyirik. Şanlı Azərbaycan Ordusu bu sevinci bizlərə yaşatmaq üçün əzmkar döyüş yolu keçir”.

## Rektor Erol Parlak: Haqq və ədalət Azərbaycan Ordusunun şanlı mübarizəsinə əlavə güc verir



Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Biz bir millət, iki dövlətik. Haqlı mübarizəsində Azərbaycana dəstək vermək mənəvi borcumuzdur. Haqq və ədalət Azərbaycan Ordusunun şanlı mübarizəsinə əlavə güc verir. İnşallah, şanlı Azərbaycan Ordusu Qarabağı, işğal altındakı torpaqları ən qısa zamanda tam şəkildə yağıdan azad edəcək. Bu, hər birimizin intizarla gözlədiyi hadisədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Musiqi və İncəsənət Universitetinin rektoru, professor Erol Parlak ifadə edib. Rəhbərlik etdiyi ali təhsil ocağının hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdıran rektor deyib: “Tarixdə baş verənlər nəsillər üçün ibrətdir. Türkiyənin hər yerində Azərbaycana böyük mənəvi dəstək göstərilir. Biz də dünənimizə, bu günümüzə və gələcəyimizə işıq saçan bu prosesə özünəməxsus şəkildə töhfə verdik. Azərbaycan və Türkiyənin dövlət bayraqlarını yağlı boya ilə kətan üzərinə çəkib birləşdirməklə birliyimizi tərənnüm edən canlı bir formul ortaya qoyduq”.

Xatırladaq ki, diplomatların, beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli ziyalıların iştirakı ilə Ankara Musiqi və İncəsənət Universitetində oktyabrın 3-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini qınamaq, eləcə də müzəffər ordumuza dəstək məqsədilə bədii proqram təşkil olunub.

## Alman portalı Fransanın faşist qrupunun liderinin Ermənistan üçün vuruşmağa and içməsindən yazır




Almaniyanın “Tekk.tv” portalında “Fransanın faşist qrupunun lideri Ermənistan üçün müharibə aparmağa and içir” adlı məqalə dərc olunub.

Məqalədə vurğulanır ki, Fransanın neonasist sağçı qrupunun (ZVP) lideri Mark de Kakkere-Valmenir azərbaycanlılara qarşı vuruşmaq üçün Dağlıq Qarabağdakı erməni əsgərlərinə qoşulub. Həmin şəxs hərbi formada əlində silahla sosial mediada şəkil paylaşıb. Onun müharibədə iştirakı PKK terrorçu təşkilatının və sağçı ekstremist Avropa qruplaşmalarının nümayəndələrinin də Ermənistan tərəfində vuruşmağa başladıqlarını deməyə əsas verir. Azərbaycanın silahlı qüvvələri tərəfindən əsir götürülmüş A.Mikaelyan adlı erməni əsgəri Dağlıq Qarabağda erməni əsgərlərinin sırasında PKK terrorçularının da vuruşduqlarını etiraf edib.

# Avstriyanın nüfuzlu şəxsi Paşinyanı necə susdurdu?

*Terror hadisəsində iki türk vətəndaşı qəhrəmanlıq göstərib*


Кристиан Керн
Бывший Федеральный канцлер Австрии

Кристиан Керн — австрийский социал-демократический политик. Федеральный канцлер Австрии с 17 мая 2016 года по 18 декабря 2017 года. Википедия

**Дата и место рождения:** 4 января 1966 г. (возраст 54 года), Вена, Австрия

**Образование:** Венский университет (1997 г.)

**Предыдущая должност...:** Федеральный канцлер Австрии (2016 ... 2017 г.)

**...ети:** Николаус Керн

**...одители:** Рудольф Керн, ...изелотта Керн




Ermənistanın baş naziri Nikol Paşinyanın Avstriyanın paytaxtı Vyanda baş vermiş terror aktından sonra bu ölkənin rəhbərliyinə və avstriyalılara tvitter vasitəsi ilə göndərdiyi başsağlığı hiddətə səbəb olub. Belə ki, onun bu məsələdə aşkar erməni həyasızlığına, yaxud "məzlumkeşliyinə" yol verməklə siyasi təbliğat aparması, daha dəqiq desək, guya erməni xalqının Azərbaycan və Türkiyənin "terroruna" qarşı mübarizə apardığını iddia etməsi istər diplomatiya, istərsə də digər aspektlərdən yolverilməzdir. Xüsusilə, başqa bir ölkənin kədərli bir vaxtında, digər ölkələrə qarşı anti-təbliğat aparmaq cəhdi ümumiyyətlə, insanlığa yaraşmayan bir davranışdır.

### Nikolaus Kern gözlənilmədən cavab verib

SİA xəbər verir ki, Paşinyanın sözügedən hərəkətinə Avstriyanın sabiq kanslerinin oğlu Nikolaus Kern gözlənilmədən cavab verib. O, erməni baş nazirinin ifadələrini sərt şəkildə tənqid edib və əsasən, iki Türkiyə vətəndaşının terror aktı zamanı, sözün əsl mənasında, qəhrəmanlıq nümayiş etdirməsini xatırladıb, yaralanmalarına baxmayaraq, digər yaralı polisə və daha bir qadını atəş xəttindən çıxardıqlarını bildirib. Nikolaus Kern həmçinin bildirib ki, Türkiyə dövləti Avstriya hökumətinə və xalqına dərhal başsağlığı ünvanlayıb, hər cür dəstək göstərməsi barədə təkliflər irəli sürdüyünü bildirib.

Qeyd edək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev də başsağlığı məktubu ünvanlayaraq, avstriyalılarla həmrəy olduğunu vurğulayıb.

### Erməni "məzlumkeşliyi" keçmədi

Beləliklə, Ermənistanın baş naziri yaxşı olardı ki, növbəti "məzlumkeşlik" tipli hay-şivən qaldırmaqdansa, ölkəsinin Azərbaycana və Türk dünyasına qarşı uzun illərdir ki, terror siyasəti həyata keçirdiyini nəzərə alardı və bu gün də Qarabağ cəbhəsində silahlı qüvvələrinin tərkibində müxtəlif terrorçu, ultramillətçi silahlıların döyüşdüklərini xatırlayardı. Lakin bu, ona sərf etmir və bununla yanaşı, cəhdləri də puça çıxır. Hər halda avstriyalı ictimai-siyasi xadimin Paşinyanı susdurması da buna dəlalət edir.

# Hikmət Babaoğlu: "Ordumuzun uğurları üçün siyasi təhlükəsizlik çətiri yaradır"



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" verdiyi müsahibə Azərbaycanın haqlı mövqeyinin bir daha dünyaya çatdırılması baxımından olduqca əhəmiyyətli idi. Eyni zamanda həm də Azərbaycan ordusunun döyüş meydanında əldə uğurların siyasi-diplomatik müstəvidə gücləndirilməsi məqsədlərinə xidmət edirdi. Çünki hərbi uğurların diplomatik cəbhədə davam etdirilməsi hazırki mərhələdə ən aktual vəzifələrdən biridir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, sentyabr ayının 27-dən bəri Prezident İlham Əliyevin dünyanın ən aparıcı media qurumlarına verdiyi müsahibələr əslində Ordumuzun uğurları üçün siyasi təhlüksizlik çətiri yaradır ki, bu növbəti addımlar üçün yaxşı imkanlar açır: "Hər şeydən öncə məslənin hüquqi tərəflərinə diqqət çəkən Prezident İlham Əliyevin Ermənistanın işğalçı olduğunu və bu işğal faktının artıq 30 - ilə yaxındır ki davam etdiyini bildirməklə bu mərhələdə müvafiq beynəlxalq təşkilatların faktiki olaraq problemin həlli üçün heç bir addım atmadıqlarını, bütün sülh danışıqlarının nəticəsiz qaldığını və yaranmış vəziyyətin işğalçı ölkəni yeni ərzailərimizi işğal etməyə həvəsləndirdiyini bildirdi. Əlbətdə Azərbaycan daha artıq buna dözə bilməzdi və Ermənistanın yeni hərbi-siyasi təxribatları münaqişənin aktiv fazaya keçməsini şərtləndirdi".

H.Babaoğlu vurğulayıb ki, Azərbaycan ordusu qısa müddət ərzində ciddi hərbi naliyyətlər əldə etməklə bütün dünyaya öz gücünü göstərdi: "İllərdir formalaşan məğlubedilməz erməmi orusu mifini darmadağın etdi . Erməni faşizminə əsaslanan işğal siaysətinə böyük zərbə vurmaqla regionda sülhün bərqərar olması üçün yeni şərtlər yaratdı. Terrorçu dövlət olan Ermənistanın dəstəklədiyi terror siyasətinin sülhü təhdid edən vasitə kimi ortadan qaldırılması istiqamətində işğalçı ölkəyə yaxşı dərs verdi. Eyni zamanda işğalçı Ermənistanın regiona cəlb etdiyi çoxsaylı terror təşkilatı üzvlərinin də cinayətlərinin qarşısını aldı. Belələliklə regionda yeni hərbi -siyasi reallıq yaratdı. İşğalçı ölkənin baş naziri Paşinyanı dünya dövlətlərinin liderlərinə fasiləsiz telefon edərək...".

***Aysel Məmmədova***

# Anna Mehrabyan ermənilərin Gəncədə öldürdüyü oğlundan danışdı

***Xəbər verdiyimiz kimi, 17 oktyabrda Ermənistan silahlı qüvvələrinin Gəncəyə raket hücumu nəticəsində Rusiya vətəndaşı, 2007-ci il təvəllüdlü Mayakov Artur Vasilyeviç ağır yaralanmış, 1 həftə sonra isə aldığı xəsarətlərdən müalicə olunduğu xəstəxanada dünyasını dəyişmişdi.***





XəzərXəbər "Qafqazinfo" istinadən xəbər verir ki,, Arturun anası - Stavropol sakini Anna Mehrabyan "Bloknot-Stavropol" nəşrinə oğlu ilə bağlı danışıb.

"Arturun atası dünyasını dəyişəndə ??beş aylıq hamilə idim. Uşaq Gəncədə - Azərbaycanda nənə və babasının, digər qohumlarının olduğunu bilirdi. Uşağı özüm böyüdüb tərbiyə etdim. Qohumlar Azərbaycandan gəldilər və bizdə qonaq oldular",- deyə Anna Mehrabyan bildirib.

Bir dəfə Artur tətil üçün Azərbaycana getmək istədiyini deyib. Atasının yaşadığı şəhəri görmək və qəbiristanlıqda onun məzarına baş çəkmək istəyib. Anna Mehrabyan, oğlunu onun arxasınca gələn nənəsi ilə birlikdə Gəncəyə göndərib.

"Mənə dedi ki, "Ana, Azərbaycanda xoşuma gəlsə, orada qalacağam". Cavabında ondan soruşdum: "Bəs mən?". Artur Gəncədə daha yaxşı olacağını, atasının olduğu yerlərdə olmaq istədiyini söylədi ",- deyə qadın xatırlayıb.

İki il yarım Artur Gəncədə yaşayıb, oxuyub. Yeniyetmə Yessentukiyə evə getməli imiş, ancaq pandemiya başlayıb. Sərhədlər qapadılıb, sonra döyüş əməliyyatları başlayıb. Narahat olan Anna Mehrabyan səfirlik və nazirliyə müraciət edib. "O vaxt bir aydır uşağımı görmürdüm. Məni inandırdılar ki, vəziyyət nəzarət altındadır, hər şey yaxşıdır və yerli sakinlərə toxunulmur. Arturun bibisi mütləq onunla birlikdə gələcəyini söylədi.Ötən gün təsadüfən uşağımın öldüyünü bildim. Axıra qədər inanmırdım. Bunun doğru olmadığını düşünürdüm. Sonra adını gördüm. 17 oktyabrdan komada olub",- deyə A.Mehrabyan izah edir.

Qeyd edək ki, Artur Mayakovun yatdığı xəstəxanadan Anna Mehrabyana bir neçə dəfə zəng edərək oğlunu ziyarət edə bilməsi üçün gəlməsini təklif ediblər. Lakin Anna Mehrabyan gəlməyib...

# Qarabağdan olan erməni qadın Paşinyana "get" dedi




***"Nikol Paşinyan, sən bir az da olsa vətənpərvərsənsə, artıq get". SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Dağlıq Qarabağdan Ermənistana gələn və mətbuat səhifəsində açıqlama verən qadın Qoar Qriqoryan deyib.***

Dağlıq Qarabağdan olan qadının Ermənistanın baş nazirinə ünvanladığı tənqidi fikirlər videogörüntülərə alınıb və işğalçı ölkənin mətbuat səhifələrində yayımlanıb. "Nikol Paşinyan, sən gəmini suyun dibinə aparırsan", deyə videogörüntülərdə Qarabağdan olan qadın Qoar Qriqoryan Nikol Paşinyana ünvanlanıb.



# Qarabağda ağlar qalan Paşinyan - Moskva daha göz yaşlarına inanmır

***Hər şey bir nöqtə ilə başladı. Heç inanmazdı ki, bu nöqtə bir dövlətin, bir millətin başına düşən ağırtonnajlı bir daş olacaq. Dəlidir, xəstədir, hətta gicdir dedik, qanmadı. Əksinə, daha da həvəslənib, əlində şüşə Şuşada, Xankəndidə sərxoşluq elədi. Oynadı, oynatdı - bədənini deyil, həm də Azərbaycanın səbr kasasını. Kasa isə daşdı, nöqtənin üzərinə şaquli bir xətt çəkdi. Düz başa düşdünüz: Paşinyanın ağzının üstünə yekə bir nida yapışdırıldı. Beləliklə, "cənab" Nikolun ağlar günləri başladı...***

Diqqət etsək, görərik ki, Ermənistanda hakimiyyətə gəldiyi ilk vaxtlarda Nikol Paşinyan Dağlıq Qarabağdakı Xunta rejimindən "üyüdürdü", qorxurdu yəni. Dildə onları dəstəkləsə də, hər vasitə ilə bu xuntanın əl-qolunu yaxasından kəsib atmağa çalışırdı. Misal üçün, bir tərəfdən həm Azərbaycana, həm də xuntaya eşitdirirdi ki, Dağlıq Qarabağ münaqişəsini oradakı "hakimiyyətlə" çözün, bizlik deyil, digər tərəfdən də bu qondarma rejimin əsas funksionerlərindən olan eks-prezident Robert Koçaryanı məhkəmələrdə, hətta həbsxanalarda süründürdü. Özü də bilə-bilə ki, Koçaryan sadiq köpəkdir və bu, onun ağasının xoşuna gəlməyəcək. Elə də oldu, ağa üz vurmasa da, bərk əsəbiləşdiyi hiss edildi. Bu azmış kimi, Paşinyan tarixən erməniyə ağalıq etmiş rusu hər daim, özü də açıq-aşkar Qərbin ayağına verdi. Təbii ki, bu da böyüyün üzünə ağ olmaq, onu aşağılamaq kimi qiymətləndirildi.

Amma küçədən götürüb kresloya dırmaşdırılan Nikolu elə də ağılsız sanmayın. O, olduqca ağıllıdır, sadəcə hər şeyi öz arşını ilə ölçür. Az sonra bunun izahı olacaq...

Paşinyan getdikcə Dağlıq Qarabağa səfərlərini intensivləşdirdi. Oradakı qondarma rəhbərliklə,




hərbçilərlə, hətta mülki insanlarla sıx təmaslar qurdu. Sən demə, altdan-altdan həm də köhnə xuntaçılardan olan qondarma rejimin rəhbəri Bako Saakyanın torbasını tikirmiş. Və zəmin yaranar-yaranmaz, Dalıq Qarabağda qondarma "prezident seçkiləri" təşkil etdi - 2020-ci ilin 31 martında. Düzdür, heç bir dövlət, beynəlxalq təşkilat bu seçkiləri rəsmən tanımasa da, Paşinyan istəyinə nail oldu. Beləcə, Bakonu Araik Arutyunyanla əvəzlədi. Bununla da Dağlıq Qarabağı sanki özünə daha da yaxın hiss etmiş oldu. Məsələ artıq Ermənistanın məsələsi yəni. Əlqərəz, adam min cür xəyallara qurşandı, bir-birinin ardınca sərsəm fikirlər, bəyanatlar səsləndirdi. Hətta xox gəlmək üçün Azərbaycanın dövlət sərhədinə (Tovuz, iyul 2020), mülki insanlarına təcavüz etməkdən belə çəkinmədi.

Qarabağ sevdasına o qədər qapılmışdı ki, artıq oraya özünün ömürlük istirahət və gəlir məkanı kimi baxırdı. Azərbaycan və beynəlxalq aləmin durğunluğu, cəzasızlığı onu arxayınlatmışdı. Hətta bəd ayaqda ağasının da (onun yox, erməni əhalisinin) onu tək qoymayacağından çox ümidli idi...

27 sentyabr 2020. Paşinyan gözlərini ovuşdura-ovuşdura Araikin zənginə yuxudan kəm durur. O kəmlik, bu kəmlik, adam hələ də yuxu nədir yatmır. Yorğundur, əzgindir, üzgündür və ən nəhayət gözü yaşlıdır, ağlar qalıb, içi qaynayır! Azərbaycanın illərdir püskürmək üçün yanıb-tutuşan səbr kasasından daşan "lava" bütün ağırlığı və qaynarlığı ilə Paşinyanın kürəyindədir. Yatmaq nədir, gəzib-dolaşmaq, yeyib-içmək belə haramıdır artıq.

Qarabağın qara bağı açıldıqca Paşinyan daha da çıldırır, ağlayır, sızlayır və yazıq görkəmində yenə umduğu yerdən, ermənilərin ağası rusdan imdad dilədi. Qara bağın düyünləndiyi, hətta qıfıllandığı Kreml isə onun göz yaşlarına inanmadı. Necə deyərlər, Paşinyanı düzdə, lap elə Cıdır düzündə üzüqoyulu qoydu. Məşhur filmdə deyildiyi kimi - Moskva göz yaşlarına inanmır!

Gələk arşın məsələsinə!

Bəli, Paşinyan hər şeyi öz arşını ilə ölçdü, nə xalq düşündü, nə də dövlət. Çünki onun Soros adlı tək ağası var. Nə yazıq ki, bu ağa da Qarabağ düyününün ömür boyu açılacağı ehtimalını belə düşünmürdü. Bu səbəbdən də Paşinyanı heliumla qazlandırmışdı. Heliumla doldurulan şarı düşünün, elə hey göyə qalxmaq, uçub getmək üçün çırpınır. Amma nə yazıq ki, onun da ömrü çox qısa olur. Tez alışıb, tez də sönür. Eynilə Paşinyan kimi...

***Elgün Mənsimov***

# Ermənistan Tərtərə fosforlu bomba atıb



***Ermənistan silahlı qüvvələri Tərtər rayonunda dinc əhaliyə qarşı beynəlxalq konvensiyalarda qadağan olunmuş ağ fosforlu mərmilərdən istifadə edib. ANAMA-nın əməkdaşı Mədət Məmmədov bildirib ki, Tərtər rayonunun Səhləbad kəndi ərazisinə atılmış fosforlu top mərmiləri xoşbəxtlikdən partlamayıb:***

"Bu gün səhər 102 "Qaynar xətti"nə daxil olan məlumat əsasında əraziyə baxış keçirilib və bir ədəd partlamamış ağ fosforlu top mərmisi aşkarlanıb. 122 millimetrlik mərmilərin içərisində 3 kiloqram 800 qram ağ fosfor var. Mərmilər partlayıcı mexanizmlərindəki nasazlıq səbəbindən düşərkən partlamayıb. Fosforlu top mərmiləri partlayış yolu ilə yerində zərərsizləşdirilib.

Qeyd edək ki, fosforlu bombadan istifadənin qadağan edilməsi ilə bağlı müxtəlif beynəlxalq sənədlər var. İlk olaraq 1868-ci ildə Sankt-Peterburq deklarasiyası qəbul edilib. Bundan başqa, müharibə qurbanlarının qorunması haqqında 1949-cu il Cenevrə konvensiyaları və əlavə protokollar, "Adi silahların konkret növləri haqqında konvensiyaya" III protokol (1980) - həddən artıq ziyan vuran hesab edilə bilən və ya qeyri-seçim hərəkətinə malik adi silahların konkret növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudiyyət qoyulması barədə konvensiya var. Həmin sənədlərdə qeyd olunub ki, istənilən şəraitdə mülki əhaliyə, ayrı-ayrı mülki şəxslərə və ya mülki obyektlərə yandırıcı silah tətbiq etməklə hücum qadağandır. Ermənistanın bu silahdan istifadə etməsi mülki Azərbaycan əhalisinə qarşı terror, təxribat və mümkün qədər çox qırğın törətmək məqsədi daşıyır".

# "AgoraVox" portalı Fransa mediasındakı qərəzlilikdən yazır

***Bəzi siyasətçilərin və ya "mütəxəssislərin" "parazit" təhlillərinə qərq olan mediamız "zəifliyini etiraf edir" və nəticədə Dağlıq Qarabağ münaqişəsinin səhnələşdirilməsində iştirak edir. Çünki erməni mənşəli həmvətənlərin və ya Ermənistan vətəndaşlarının narahatlıqlarına cavab vermək üçün bir sıra geosiyasi və strateji mülahizələr səsləndirmək və Dağlıq Qarabağ münaqişəsi kimi mövzu ilə bağlı "hədsiz sadə" fikirlər təqdim etmək son günlər dəbdədir. Guya "sevimli" ermənilər dədə-baba torpaqlarını müdafiə edir, "qəddar" azərbaycanlılar isə onlara hücum edirlər...***

AZƏRTAC xəbər verir ki, bu fikirlər "AgoraVox" portalında dərc olunmuş "Dağlıq Qarabağ -Fransız mediası düşərgəsini seçəndə"... qərəz ya manipulyasiya?" adlı məqalədə yer alıb. Məqalədə deyilir ki, təkrarlanan və oradan-buradan gələn müdaxilələr əsl məlumat və faktları əvəz edir. Onlarla sənəd, on illərdir beynəlxalq səviyyədə tanınan sərhədlərin yenidən cızıldığı xəritələr, "görüntülər üzərində dayanaraq" kontekstdən çıxarılan şəkillər, cəlbedici ifadələr, bəzən dostdan, onun da, öz növbəsində, nənəsindən, qardaşından, əmisi oğlundan eşitdiyi rəvayətlər...! Qısası, təxribat xarakterli və elə buradan da erməni "dostlarımız"ın xeyrinə olan səs, söz yığını fransız mediasını bürüyüb.

Müəllif Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son günlər fransız mediasında səsləndirilən birtərəfli mövqelərin, səsləndirilən fikirlərin qərəzliliyinə etiraz edir. Bildirir ki, ölkədə müəyyən qurumlar tərəfindən yaxşı xaos strategiyası təşkil edilib. Son günlər xristian və müsəlman sivilizasiyalarının uyğunsuzluğunu vurğulayan digər aktual məsələlərin arxasında gizlədilən məqamlar açıq-aydın görünür.

Müəllif fransız mediasının obyektiv gözləntilərə cavab vermək, demokratik platforma qurmaq əvəzinə, qərəzli, birtərəfli mövqe tutmasının məyusluq yaratdığını vurğulayıb. Xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsi kimi ciddi problemləri işıqlandırmaq üçün Fransa mediasının daha geniş platforma qurub, hadisələri obyektiv təhlil edəcəyi gözlənilsə də, ölkədə Ermənistana açıq şəkildə üstünlük verən media müharibəsi gedir. Yazıda Dağlıq Qarabağ münaqişəsi, onun tarixi, azərbaycanlıların doğma yurdundan didərgin salınması, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamə, münaqişənin həllində vasitəçilik edən Minsk qrupu haqqında da ətraflı məlumat verilib.

# Rusiya MN nümayəndəsi: Azərbaycan Ordusu dünyanın ən yaxşılarındadır

## *İqor Korotçenko: Qarabağda əldə edilən qələbə vaxtilə Azərbaycan ordusuna ayrılan böyük vəsaitlərin nəticəsinin real təcrübədə əyani nümayişidir*

***Rusiya Müdafiə Nazirliyi nəzdində İctimai Şuranın rəhbəri, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko Qarabağ döyüşləri ilə bağlı bəzi məqamları Pravda.Ru-nun baş redaktoru İnna Novikovaya şərh edib. Mühasibəni oxucularımıza təqdim edirik.***




***- İqor, proqramın gedişində 1000-dən artıq sayda şərh və sual yazılıb. Erməni tamaşaçılarımız arasında böyük bir həvəs hiss etmək olar, amma azərbaycanlılar arasında daha çoxdur. Bir çox insan 90-cı illərin əvvəllərindəki müharibə tarixini xatırlayır.***

- Mənəvi cəhətdən əlavə texniki təchizat və kadr hazırlığı çox vacibdir. Fakt budur ki, Azərbaycan Xalq Cəbhəsi o zaman Azərbaycanda hakimiyyətə gəldi. Elçibəyyəni Paşinyan kimi müxalif siyasətçi rəhbərlik edirdi. Əlbətdə ki, sərt bir mərkəzləşdirilmiş güc olmadıqda, o dövrdə səfərbərlik və döyüş əməliyyatlarının səriştəli idarə edilməsi mümkün deyildi.

Ermənistan Pavel Qraçovun müdafiə naziri təyin edilməsindən sonra ciddi dəstək aldı. O, Ermənistana rəğbət bəslədi və müəyyən qərarlar qəbul edildi, buna görə Ermənistan avadanlıqların bir hissəsini oradakı hərbi birliklərdən aldı. Bundan başqa. anbarları qarət edərək, texnikanın digər hissəsini də ələ keçirdi.

Azərbaycanda vəziyyət Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra düzəldildi. O, görkəmli bir Sovet dövlət xadimi idi. Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini, bir vaxtlar Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etmiş, çox hazırlıqlı, iradəli, sərt və konkret siyasətçi idi.

Prezident Heydər Əliyev Azərbaycan ordusunu faktiki olaraq sıfırdan yaratmağa başladı, çünki Azərbaycan Xalq Cəbhəsi çox kədərli bir miras qoymuşdu.

İlham Əliyev Azərbaycanda hakimiyyətə gəldikdə, böyük miqdarda valyuta gəlirləri gətirməyə başlayan iri neft və qaz infrastruktur layihələrini həyata keçirə bildi. Bütün Azərbaycan iqtisadiyyatı inkişaf etdi, orduya da böyük ayırmalar edildi.

Buna görə də, bugünkü Azərbaycan ordusu yaxşı təchiz olunmuşdur, layiqli bir rəqibdir, bölgənin ən yaxşı ordularından biridir və dünyanın ilk 50 ən yaxşı ordusu sırasındadır.

Əlbətdə cəbhədə vəziyyət, ən azı zamanın bu nöqtəsində Azərbaycanın xeyrinə inkişaf edir. Bu, vaxtilə ordu və müdafiə üçün ayırmaların Bakı tərəfindən nə səbəbdən edildiyini göstərir.

Bugünkü müharibə, ilk növbədə, yüksək dəqiqlikli silahlar istifadə edilən texnoloji müharibədir. Müasir dünyada bunlar hamının dərk etməli olduğu yeni reallıqlardır.

Rus ordusunda pilotsuz hava vasitələri çoxdan bəri çox diqqət çəkmir. Hərçənd Sovet İttifaqının sonlarında- 80-ci illərin sonunda- biz yaxşı səviyyədə idik.

Ancaq 90-cı illərdə bu istiqamətdə heç bir şey edilmədi. Yalnız Şoyqunun gəlişi ilə bu boşluğu aradan qaldırmaq üçün real cəhdlər başlandı və pilotsuz təyyarələrlə ciddi məşğul olmağa başlanıldı.

***- Daha tez. Serdyukovu tənqid etsələr də, ordu islahatı onun rəhbərliyi altında başladı.***

- Bəli, Serdyukovun rəhbərliyi altında İsrail ilə bir sıra İsrail pilotsuz təyyarələrinin alınması və Rusiyada lisenziyalı istehsalına dair müqavilələr artıq imzalanmışdır. Ancaq həqiqət budur ki, İsrail indi Azərbaycana son nailiyyətlərini təqdim edirdisə, israillilər o vaxt bizə ən müasir olmayan avadanlıqlar verdilər.

Əslində, bu bizim üçün daha faydalı oldu. Ən azı müəyyən bir bacarıq inkişaf etdirdik və artıq özümüzdə müasir pilotsuz təyyarələrin yaradılması istiqamətini inkişaf etdirməyə başladıq. Suriyada pilotsuz təyyarələrimiz artıq özünü çox yaxşı sübut etdi.

2016-cı ilin sonunda Rusiya Müdafiə Nazirliyinin nəzdindəki İctimai Şura vasitəsilə Suriyaya işgüzar səfərim oldu. Dronların əsl işi bizə onlayn göstərildi.

Silahlıların içərisinə sursat gətirdiyi mağara görünür. Bunu aşkar edən bir PUA-dan. Sonra betondələn bombalarla hamısını məhv edən nöqtə atışları. Hər kəs həqiqətən bunun necə edildiyini gördü- nəzarət mərkəzində canlı izlədik və çox təsirləndik.

Buna görə də, bu gün müasir olmaq, səmərəli mübarizə aparmaq istəyən hər bir ordunun tərkibində müxtəlif səviyyəli pilotsuz təyyarələr olmalıdır. Bu, yalnız dəbə və ya meyllərə hörmət deyil, həyati zərurətdir.

Rusiya Silahlı Qüvvələri özünün müxtəlif sinif dronlarından fəal şəkildə istifadə edir. Ordu-2020 sərgisində yeni perspetivli strateji nəqliyyat vasitələri, pilotsuz kəşfiyyat təyyarələri və zərbə dronları nümayiş olundu.

Ümid edirik ki, bu proses ən qısa müddətdə həyata keçiriləcək və dövlət müdafiə sifarişlərinə daha fəal daxil ediləcək, çünki bu cür silahlara- bizi pilotsuz təyyarələrdən istifadə edərək düşmən hücumlarından qoruyacaq silahlara ehtiyacımız var.

***- Şərhlər sunamisi gücləndi, mən artıq bu prosesi idarə edə bilmirəm ...***

- Nə Azərbaycana, nə də Ermənistana dəstək olmaq istəmirəm. Bu müharibədir, insanlar müharibədə ölürlər. Nə də olsa, bu iş mümkün qədər dincliklə başa çatsa yaxşı olardı. Ancaq böyük ehtimalla bu hələ mümkün deyil.

***Tərcümə: Elçin Bayramlı***

# Ermənistan fransalı ekstremisti muzdlu kimi istifadə edir



Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, həyata keçirilən bu tədbirlərin davamı kimi, Fransa Respublikasının vətəndaşı, Parisdə zorakılığın əsas təhrikçisi olan Fransanın ekstremist "Zouaves Paris" (ZVP) qruplaşmasının lideri, özünü sosial şəbəkələrdə faşist adlandıran və terroristik qruplaşma olan "SS" faşist təşkilatının simvolikasından istifadə edən Marc de Cacqeray-Valmenier-in (Mark De Kakkere-Valmenirin) və digərlərinin Azərbaycan Respublikasının ərazisində törətdiyi cinayət əməllərinə dair toplanmış materiallar, habelə kütləvi informasiya vasitələri və sosial media səhifələrində aşkar edilmiş məlumatlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma aparılmışdır.

Araşdırmalarla qeyd olunan cinayətkar birlik və üzvlərinin 2020-ci ilin oktyabr ayında Ermənistanın aidiyyəti dövlət qurumlarının təşkilatçılığı və dəstəyi ilə Ermənistana gələrək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan digər şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, habelə döyüş əməliyyatlarında iştirak etməyən dinc sakinlərə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Hal-hazırda qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Fransanın aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatət hazırlanır.

Eyni zamanda, xəbər verildiyi kimi, Ermənistan Respublikasının vətəndaşı Vladimir Vartanov və qeyrilərinin müxtəlif ölkələrin vətəndaşları olan erməni əsilli və digər şəxslərdən ibarət "VoMa" ("Voxj Mnalu Arvest" - sağ qalmaq sənəti) adı altında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmə yaratmaları, birləşmə üzvlərinə terrorçuluq məqsədilə təlim keçmələri, işğal olunmuş ərazilərimizdə terrorçuluq əməllərini törətmələrinə dair Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən başlanmış cinayət işi üzrə Vladimir Vartanov Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, məhkəmənin qərarı ilə barəsində qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən beynəlxalq axtarış elan edilmişdir. Hazırda hər iki cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## "İrates": "Mövcud hakimiyyət günah yükünü öz üzərinə götürmək istəmir"



"Baxmayaraq ki, mövcud hakimiyyət müxalifətin baş verənlərdə cavabdehliyi bölüşmək məqsədi ilə "müdafiə komitəsi" yaratmaq təkliflərini rədd etdi, lakin təbliğat meydanında tamamilə başqa taktika seçilib".

SİA xəbər verir ki, bu barədə ermənilərin "İrates" nəşri yazır. Nəşrin qeyd etdiyinə görə, hakimiyyətə yaxın dairələrdə artıq dəqiq messec mövcuddur ki, guya baş verənlərdə əvvəlki hakimiyyət günahkardır və mövcud hadisələr də onların siyasətlərinin nəticəsidir: "Deyirlər ki, onlar bu yolla günahlarını silməklə üzərlərinə düşən məsuliyyətlərindən boyun qaçırırlar. Çünki müharibədən sonra bir çox suallara cavab verilməli olacaq və hakimiyyət həmin yükü öz üzərinə götürmək istəmir".

***Rövşən***

# Ermənistanı uçuruma aparan şəxs: Paşinyanın reallıqları yalanlarla dəyişmək cəhdi

***Xüsusən Ermənistanın baş naziri Nikol Paşinyan gah sosial şəbəkə hesabı vasitəsilə canlı yayıma çıxaraq "Dağlıq Qarabağ münaqişəsinin diplomatik həllinin olmadığını" bildirir, gah da müxtəlif dövlət və hökumət başçılarına müraciətlər edərək yardım etmələri üçün yalvarır. Rusiya Prezidentinə ünvanladığı son rəsmi müraciəti isə əslində, Paşinyanın məğlubiyyətini qəbul etməsi kimi qəbul edilir. Qeyd edək ki, o, bu müraciətinə də müsbət cavab ala bilmədi.***

### Ermənistan ordusunun acı məğlubiyyətinə uydurma səbəblər axtaran Paşinyan

Bütün bu uğursuzluqlara rəğmən Nikol Paşinyan Ermənistanın hərbi məğlubiyyəti ilə şərtlənən acınacaqlı durumunu məntiqlə izah etmək bacarığında deyil. Hətta o, heç bir əsası olmayan, qeyri-rasional açıqlamalarla beynəlxalq ictimai rəyi çaşdırmağa cəhdlər edir. Belə ki, N.Paşinyan bu günlər ərzində heç bir əsası olmadan, fakt göstərmədən, bəzən xarici mediaya, bəzən də guya əldə etdikləri faktlara istinadən cidd-cəhdlə Türkiyənin münaqişədə tərəf kimi iştirak etdiyini söyləyir, bu azmış kimi, Azərbaycanın Türkiyə vasitəsilə Yaxın Şərqdən yaraqlıları hərbi əməliyyatlara cəlb etdiyi iddiası ilə çıxış edir. Bunu, əlbəttə ki, ilk növbədə, "məğrur" Ermənistan ordusunun darmadağın edilməsi faktına səbəb kimi dilə gətirir. Belə qələmə verməyə çalışır ki, Ermənistan yalnız Azərbaycan Ordusu ilə deyil, həm Türkiyə hərbçiləri, həm də Yaxın Şərqdən olan yaraqlılarla döyüşür. Digər tərəfdən, o, bununla Azərbaycanı və Türkiyəni terrorçularla eyniləşdirməyə çalışır. Lakin bu iddialarını heç bir tutarlı faktla təsdiqləyə bilməyən Paşinyan artıq reallıqları qəbul etməlidir.

Bu gün Ermənistan nəinki hər gün, hətta hər saat, hər dəqiqə məğlubiyyətə daha da yaxınlaşmaqdadır. Bunu çox güman Paşinyanın özü də hiss edir, lakin etiraf etmək cürəti tapmır. Əksinə, hələ də bu yalanları yalvararaq minnətçi düşdüyü ayrı-ayrı ölkələrin rəhbərləri ilə təmaslarda, xarici media orqanlarına müsahibələrində, öz xalqına müraciətlərində təkrarlamaqdan yorulmur. Lakin bu yalanların heç biri əsl reallıqları dəyişmək iqtidarında deyil.

### Mənasız danışıqları ilə artıq sadə erməniləri də bezdirən Paşinyan primitiv məntiqi ilə uğursuz cəhdlər edir

"Yalnız mənasız müsahibələr verməklə məşğulsan, bizim axırımız necə olacaq?", "Bütün məsuliyyət sənin üzərindədir, hər şey sənə görə baş verir", "Sən xainsən danışma"... Bunlar bu gün sosial şəbəkələrdə Nikol Paşinyana ünvanlanan mesajların kiçik bir qismidir. Daha ağır sözlərlə öz fikirlərini ifadə edən sadə ermənilər də artıq Paşinyanın yarıtmazlığının fərqindədirlər.

Fəal sosial şəbəkə istifadəçisi kimi, Nikol Paşinyan da yəqin ki, ona ünvanlanan bu təhqirləri görür. Lakin nəticə çıxarıb işğala son qoymaq, əsgərlərini məhv olmaq təhlükəsindən qurtarmaq əvəzinə, o, Azərbaycanın dinc sakinlərinə, yaşayış məntəqələrimizə atəş açmaq əmri verir. Paşinyanın danışdığı yalanlar, deyib, lakin təqdim etmədiyi "faktlar", həm də onun törətdiyi müharibə cinayətlərini ört-basdır etmək məqsədi daşıyır. Lakin artıq həm





Ermənistanın daxilində, həm də beynəlxalq ictimaiyyət arasında çox az sayda insan Paşinyana inanır, ona etibar edir.

Çarəsiz Paşinyan artıq hər bir ağılsızlığa əl atmaqla məşğuldur. Təsəvvür edin, dünyanın hər hansı ölkəsində baş verən terror aktını dərhal şans kimi qiymətləndirir və bunu Azərbaycana qarşı istifadə etməyə çalışır. Məsələn, "Rossiya-1" kanalına müsahibəsində, o, Dağıstanda baş vermiş hansısa hadisənin terror olduğunu deyir, Azərbaycanda guya yaraqlıların olduğunu iddia edir və bu iki məsələni çox primitiv, hətta orta statistik jurnalistdən də aşağı səviyyədə sübut etməyə çalışır. O, İrana terror təhlükəsi haqqında mesajlar ötürür, İsraili şeytanla əməkdaşlıqda ittiham edir.

Heç bir iqtisadi potensialı, xarici ölkələrlə qarşılıqlı əməkdaşlığa əsaslanan münasibətləri olmayan Paşinyan nəzərə almır ki, ilərdir çoxvektorlu xarici siyasət kursunu reallaşdıran Azərbaycan həm qonşuları, həm də dünyanın əksər ölkələri ilə çox yaxşı səmərəli əməkdaşlıq əlaqələrinə malikdir və ən əsası, xalqın maraqlarına söykənən müstəqil siyasət yürüdür. Belə olan vəziyyətdə Paşinyan anlamalıdır ki, iqtisadiyyatı çökmüş, erməni lobbisindən asılı və öz xalqının maraqlarını başqalarının maraqlarına qurban verən bir ölkənin qeyri-ciddi baş nazirinin uydurma iddialarını heç kim ciddi qəbul etməz. "The Jerusalem Post" nəşrinə müsahibəsində İsraili terrora dəstək verməkdə ittiham edən Paşinyan həm də guya Azərbaycanın və Türkiyənin simasında yəhudi dövlətinə qarşı təhlükə alyansının yarandığını bildirir.

Paşinyanın bu cür sərsəm iddialarını dinlədikcə, aydın görünür ki, nəinki siyasətçi, heç jurnalist kimi də o, erməni xalqına fayda verə bilməz. Bu şəxs olduqca yalan, şantaj, populizm, təlxəklik kimi mənfi xüsusiyyətləri özündə birləşdirir. Erməni xalqı xoşbəxt gələcək arzusundadırsa, ordusunun işğal altındakı torpaqlardan dərhal çıxarılmasını tələb etməli, qonşuları ilə normal münasibətlər qurmalıdır. Beləcə yalnız qarşılıqlı əməkdaşlıqla gələcəklərini təmin edə bilərlər.

***Əsəd Məmmədov***
***AZƏRTAC-ın redaksiya müdiri***

# Erməni nazir Qarabağa getməkdən imtina etdi



"Mənim döyüşə getmək barədə hansısa bir planım yoxdur". SİA Ermənistana məxsus aysor.am saytına istinadən xəbər verir ki, bu sözləri Ermənistanın ədliyyə naziri Rüstəm Badasyan, jurnalistlərin ona ünvünladığı cəbhəyə gedib-getməyəcəyi barədə sualını cavablandırarkən deyib. Məlumatda qeyd olunur ki, Ermənistanın ədliyyə naziri cəbhəyə getmək niyyətinin olmaması barədə aydın şəkildə fikirlərini açıqlayıb. "Mənim belə bir planım yoxdur", deyə Rüstəm Badasyan bildirib.

Xatırladaq ki, 27 sentyabr tarixində Ermənistan tərəfinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi əməliyyatlara başlayıb, işğal altında olan Azərbaycan torpaqlarını terrorçulardan, separatçılardan, işğalçılardan təmizləyir və bu vaxta qədər işğal altında saxlanılan 200-dən çox yaşayış məntəqəsi işğaldan azad edilib, geri qaytarılıb. Qeyd edək ki, uğurlu əməliyyatlar fonunda rəşadətli əsgərlərimiz düşmənin canlı qüvvəsini, hərbi texnikasını, silah-sursatını məhv etməkdə davam edir və artıq çoxlu sayda hərbi texnika və sursat qənimət kimi götürülüb. Onu da diqqətə çatdıraq ki, əhəmiyyətli dərəcədə canlı qüvvə itgisinə məruz qalan və artıq döyüşə göndərməyə əsgər tapa bilməyən düşmən könüllülərin, hətta səlahiyyətli məmurların, eləcə də qadınların döyüşə cəlb edilməsi kimi çıxılmaz vəziyyətdə qalıb və Ermənistanın ədliyyə naziri Rüstəm Badasyana jurnalistlərin ünvanladığı sual da bu baxımdan anlaşılandır. Nəzərə çatdıraq ki, bütün bunlara baxmayaraq, Ermənistan silahlı qüvvələrində fərarilik baş alıb gedir, erməni əsgərlər döyüş mövqelərini, silah-sursatı qoyub qaçır və Rüstəm Badasyanın timsalında işğalçı ölkə vətəndaşları Dağlıq Qarabağ ərazilərində döyüşməkdən imtina edirlər.

# Qevorq Petroosyan: "Paşinyan, səni lağa qoyurlar"

Nikol Paşinyanın dar düşüncəli olduğunu bilirdim, amma bu qədər dar dü.üncəli olduğunu, sonuncu çirkin əməllərə, vasitələrə müraciət etməyə hazır olduğunu gözləmirdim. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Çiçəklənən Ermənistan" fraksiyasından olan millət vəkili Qevorq Petroosyan deyib.



Millət vəkili ona olan hücumları gizlətməyib və bunun Nikol paşinyan tərəfindən edildiyini də qabardıb. "Bədbəxt Nikol, quldurlarınla çəkin, sənin işin-gücün yoxdur, mənimlə çirkin oyunlar oynama, sırf siyasi tənqid məni qane edir, bu bir deputatın haqqıdır. Anlayıram ki, minlərlə uşağın öldüyünü anlamaq çətindir, amma sən məni günahlandırmağa çalışırsan utanmadan. Şəhər sakinlərini sən çağırmadınmı? Onlara, cəbhəyə gedərkən özünüzlə gülləkeçirməz zireh və digər əşyalar götürün demədinmi? Dağlarda yağış altında daldalanacaqsız qalan ac polislərin etiraz videosunu görmədinmi? Ancaq sən nə qədər acizsənmiş. Ölkədən kənarda sizə zərrə qədər hörmət olsaydı belə, bu qədər ailənin işıqları sönməzdi, bu qədər ailə yasa batmazdı. Günahsız qurbanların valideynlərinin intiqamı ilə necə qarşılaşacağınızı düşünün. Paşinyan, hamı sənə gülür və lağa qoyur, sən də vərdişinə görə ölkə daxilində özünü görməməzliyə, qanmazlığa vurmusan. Sən baş yeyən, insanları qırğına sürükləyənsən. Sizə deməyi yaxşı ki, unutmadım, maskanızı tərs istiqamətində taxın", deyə Qevorq Petroosyan bildirib.

***İnam Hacıyev***

# Ermənistan hökuməti Qarabağ ermənilərinin əlində aciz qalıb



***Qarabağdakı torpaqlarımızı zəbt etmiş ermənilərin indi də Ermənistana kütləvi axınları qarşısında aciz qalan düşmən ölkənin hökuməti bunu tam etiraf etməsə də, artıq çətinliklərin artdığını da etiraf etmək məcburiyyətindədir. Ermənilərin sosial şəbəkə seqmentlərində hay-harayları da belə qənaətə gəlməyə zəmin yaradır ki, Paşinyan hökuməti Qarabağ məğlubiyyətinin acısını yaşaması ilə yanaşı, oradan qaçan insanların da ağırlığına tab gətirə bilmir və sosial-məişət problemlərini həll etməkdə ciddi çətinliklərlə üz-üzə qalıb.***

Hətta Əmək və sosial məsələlərlə iş üzrə nazirliyin 114 nömrəli qaynar xəttinin də davamlı məşğul olması, eyni zamanda zəngləri cavabsız qoyması faktı da xalqı sərt şəkildə qıcıqlandırıb.

### Minnət qoyur, ittiham edir, yalan danışır və etiraf edir

Nazir Zauri Batoyan bütün bunların yerinə yalanlarını sırıyır və eyni zamanda, ittiham edən tərəfləri öz ittihamları ilə susdurmağa cəhdlər göstərir. "Əmək və sosial məsələlərlə iş üzrə nazirliyin 114 nömrəli qaynar xəttinin cavab verməməsi həqiqəti əks etdirmir". SİA xəbər verir ki, bunu nazir Zauri Batoyan jurnalistlərlə söhbətində deyib. Onun sözlərinə görə, Qarabağdan gəlmiş insanların evlərlə təmin olunmaması və açıq hava altında qalması barədə məlumatlar da doğru deyil. Amma...

Maraqlıdır ki, erməni nazir paytaxt İrəvan da daxil olmaqla ölkənin bütün şəhərlərində yaşanan xaos və pərakəndəliyi gizlətmək üçün əksinə - ön cəbhədən qaçmış insanları ittiham edib və bu cür insanları yalnız öz mənzil şəraitlərinin yaxşılaşdırılmaları barədə düşündüklərini bildirib. O, bir reallığı etiraf edib ki, dövlətin buna gücü çatmır. "Təəssüf ki, Ermənistanın onların tələb etdikləri şəraiti yaratmağa imkanları məhduddur", deyən Ermənistanın Əmək və sosial məsələlərlə iş üzrə naziri digər imkanların da məhdud olduğunu bildirib. "İlk növbədə, biz insanların başlarının üstündə damlarının olmasını və qida ərzaqlarının təmin olunması məsələsini həll edirik", Batoyan demək olar ki, ermənilərin üzərinə minnət qoymağı da unutmayıb..

***Rövşən RƏSULOV***

# "Ordumuz erməni cinayətkarların cəzasını mütləq verəcək"



"Ermənistan dəfələrlə qadağan olunmuş silahlardan istifadə edib və bu gün də dinc əhalimizə qarşı bunu tətbiq etməkdə davam edir. Gəncə, Tərtər, Bərdə şəhərlərinə kasetli bombalar atmaqla onlarla dinc vətəndaşımızı qətlə yetiriblər. Bu barədə Azərbaycan hökuməti bütün beynəlxalq aləmə və təşkilatlara məlumat verib. Maddi sübutlar xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpuslarının və KİV-nin nümayəndələrinə göstərilib".

Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maariflənlədirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib. A.Xəlilov təəssüflə bildirdi ki, beynəlxalq təşkilatlar sadəcə bəyanat verməklə kifayətlənib: "Bəzən isə verilən bəyanatları oxuyarkən biz orada ermənilərin bu hərəkətini pisləyən cümləyə rast gəlməmişik. Təbii ki, həmişə olduğu kimi ikili standartlar və himayədarlıq öz sözünü deyir. Bu günə qədər qəbul olunmuş bütün Beynəlxalq konvensiyalar bu silahların istifadəsini qadağan edir və xüsusən dinc əhaliyə qarşı istifadəsi yolverilməzdir. Bu əməl hərbi cinayət hesab olunur. Bunu edənlər isə hərbi cinayətkarlardı. Son vaxtlar isə ermənilər daha da azğınlaşaraq fosforlu bombalardan istifadə etməyə başlayıblar. Yenə də biz beynəlxalq aləmin buna reaksiyasını görmürük. Hesab edirəm ki, ermənilərin bu cinayət əməli beynəlxaq aləmin ciddi qınağına səbəb olmalıdır. Ancaq biz bunu hələ müşahidə etmirik. Ümumi verilən bəyanatlar isə bizi qane etmir. Ancaq Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəbhədə bu gün öz sözünü şərəflə deyir. Son günlər biz Müdafiə Nazirliyinin təqdim etdiyi videolara və məlumatlarla tanış olduqda düşmənin layiqli cəzasına çatdığının şahidi oluruq. Düşmənin bu əməllərinə rəhbərlik edən yüksək rütbəli zabitləri və istifadə etdikləri hərbi texnika və sursatları məhv edilir. Düşmən öz cəzasına çatır. Artıq düşmənin şəhərlərimizi atəşə tutan mövqelərinin çoxu məhv edilib və ya ordumuz tərəfindən azad edilib. Beynəlxalq aləm ermənilərin bu əməlinə qarşı hüquqi qiymət verməsə də ordumuz erməni cinayətkarların cəzasını mütləq verəcək".

***Gülyana***

# "Ermənistanın hərbi-siyasi rəhbərliyi gec-tez cavab verəcək"



"Bir çox hallarda "Human Rights Watch" və "Amnesty İnternational" kimi təşkilatların hazırladığı hesabatlar BMT-nin sənədlərində əsas kimi götürülür. Onların burada hazırladığı hesabatlar bu baxımdan vacibdir". SİA-nın məlumatına görə, bunu bu gün keçirilən brifinqdə Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə deyib.

Onun sözlərinə görə, dünyada beynəlxalq cinayət məhkəməsi deyilən məhkəmə var: "İlk dəfə İkinci Dünya Müharibəsindən sonra bu məhkəmədə işə baxılıb. Bu gün Ermənistan hərbi siyasi rejiminin göstərişi ilə Dağlıq Qarabağda olan Ermənistan və qondarma rejimin hərbçilər tərəfindən insanlıq əleyhinə cinayət törədilir. Onlar həm müharibə, həm də insanlıq əleyhinə cinayətlərin törədilməsi ilə bağlı məsuliyyətə cəlb edilməlidir. Müharibə cinayətlərinə görə, Ermənistanın hərbi-siyasi rəhbərliyi gec-tez cavab verəcək".

Ç.Qənizadə bildirib ki, bu gün BMT-nin TŞ-yə rəhbərlik edən 5 dövlətdən 3-ü ATƏT-in Minsk Qrupunun üzvləridir: "Bu gün ermənilərin bizə qarşı törətdiyi insanlıq əleyhinə cinayətlərin səbəbkarı, günahkarı məhz ATƏT-in Minsk Qrupunun həmsədrləridir. Biz bu gün ermənilərin bizə qarşı törətdiyi cinayətlərə reaksiya verən beynəlxalq təşkilatların, dövlətlərin mövqeyini gələcəkdə istifadə edəcəyik".

***Aysel Məmmədova***

# "Son 17 ildə Azərbaycan iqtisadiyyatı ciddi əsaslarla inkişaf edib"



"Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda Azərbaycan Prezidenti İlham Əliyev Liderliyi amili mövcuddur". Bu fikirləri Milli Məclisin deputatı Məşhur Məmmədov "SƏS" qəzetinə açıqlamasında deyib.

M.Məmmədov bildirib ki, artıq son 17 ildə Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir: "Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub".

"Prezident İlham Əliyev dediyi "Əldə edilmiş uğurların dünyada bərabəri yoxdur" fikri, bu gün həqiqətən də ölkəmizdə İkinci Vətən müharibəsi getdiyi bir zamanda görünməkdədir",- deyən millət vəkili onu da vurğulayıb ki, Azərbaycan son 17 il ərzində Prezident İlham Əliyevin düşünülmüş siyasəti sayəsində inkişaf edərək güclü dövlətə çevrilib: "Bu faktoru beynəlxalq təşkilatlar da Azərbaycanın inkişaf edən və güclənən bir ölkə olmasını öz hesabatlarında qeyd ediblər və xalqımız da ölkəmizin inkişafını öz gündəlik həyatında hiss edib. Xüsusilə, mənfur terrorçu Ermənistan sentyabrın 27-də İkinci Vətən müharibəsi başlayan gündən bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir və bunu işğalçı, faşist xisləti düşmən dövlət də bir daha gördü. Bu gün bir-birinin ardınca işğal olunmuş torpaqlarımızın azad olunması, məhz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilməsidir ki, Müzəffər Azərbaycan Ordusu və rəşadətli əsgərlərimiz bu gün döyüş meydanında öz sözünü deyir və işğalçılıq siyasətindən əl çəkmək istəməyən Ermənistan öz layiqli cavabını alır. Çünki Azərbaycan haqq və ədaləti, beynəlxalq hüquq müstəvisində öz ərazi bütövlüyünün bərpa olunması yolunda mübarizəsini aparırı. Həmçinin, Azərbaycan dünya ictimaiyyətinin əleyhinə olduğu terrorçuluğa qarşı antiterror əməliyyatları həyata keçirir".

M.Məmmədov bildirib ki, iqtisadçıların apardıqları hesablamalara əsasən hərbi əməliyyatlar başladığı gündən bu günə qədər Ermənistan 2,7 milyard dollardan çox itki verib, bundan əlavə onların minlərlə canlı qüvvəsi məhv edilib: "Bütün bunlar bir daha göstərirki, işğalçı Ermənistan bütün sahələrdə çox ağır durumdadır. Onsuz da bütün sahələr üzərə ağır durumda idi. Çünki bu təcavüzkar ölkəyə rəhbərlik edənlər quldur, oğru, cinayətkar olublar. Bu gün küçə "demokratı" Nikol Paşinyan kimi savadsız, mənəviyyatsız və hər bir sahədə savadsız faşist xisləti qaniçənin rəhbərin ölkəsi ağır durumda da olmalıdır. Bu o Paşinyandır ki, qeyri-qanuni yollarla muzdlu terrorçuları Qarabağa döyüş bölgəsinə cəlb etmək, cinayət törədərək həbs olunmuş cinayətkar Ermənistan vətəndaşlarının döyüşmək müqabilində dustaqxanalardan azad edilməsi, ən əsası da cəbhədən 100 kilometr və daha uzaqda yerləşən Azərbaycan ərazilərinə qadağan edilmiş raketlər ataraq günahsız insanları, uşaqları, qocaları öz evlərində qətlə yetirən Paşinyan kimi əxlaqsız, cinayətkar bu cinayətləri qarşısında cavab verəcəkdir. Faşist xisləti düşmən döyüş meydanında Azərbaycan Ordusuna məğlub olduğu üçün hərbi cinayətlərə əl ataraq gecə öz evində yatan mülki insanlara güc göstərmək istəyir. Ancaq Ermənistan rəhbərliyi unudur ki, bu çoxsaylı cinayətlərə görə cavab verəcək. Və onu da bili rvə kor olan gözləri də görür ki, qətlə yetirilən günahsız Azərbaycan vətəndaşlarının, döyüş meydanında şəhid olan hərbçilərimizin qisası alınır və onların qanı yerdə qalmır, qalmayacaq da. Və onu da bilir ki, artıq uduzublar!. Çox yaxın zamanda Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu və igid əsgərlərimizin şücəati ilə üçrəngli bayrağımızı bütün işğal altında olan torpaqlarımız azad ediləcək, üç rəngli Bayrağımız Qarabağımızın hər bir guşəsində dalğalanacaq. Bütün dünya ölkələri, hətta bunu qəbul etmək istəməyən Ermənistan da bilir ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır! Yaxın günlərdə növbəti Qələbə Sorağı ilə Tanrı Ali Baş Komandanımızın, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin dayağı olsun!".

***RƏFİQƏ HÜSEYNOVA***

# Milli genefondumuz- çoxuşaqlılıqdan "cırtdan ailə" modelinə keçid təhlükəsi

***Güclü dövlətləri güclü millətlər, güclü müllətləri güclü ailələr formalaşdırır. Güclü ailələrin təməlini isə çoxuşaqlılıq təşkil edir. Bəzi qlobal qüvvələr illərdir "doğuma nəzarət", "ailə planlaması" adı altında insan genefonduna qarşı mübarizə aparır, ölkələrdə əhali artımına nəzarəti əlində cəmləməyə çalışır. Burada hədəf, əlbəttə, əsasən şərq ölkələridir, çünki qərb ölkələrində bu proses təbii olaraq gedir və tezliklə bunun nəticəsində dünyadakı güc balansı pozula bilər.***

### Dövlət müavinət verir, amma 6 uşağın olarsa...

Ailələrdə uşaqların sayı ilə bağlı müzakirə hər zaman aktual olub. Azərbaycan cəmiyyətində də bu məsələ həmişə gündəmdə olub, müzakirə edilib. Sovet dövründə "çoxuşaqlı ailə" məfhumu 4-dən çox uşağı olan ailələrə şamil olunurdu. SSRİ-də "Qəhrəman ana" medalı da vardı ki, bu medal 10 və daha çox övladı olan qadınlar üçün 1944-cü ildə təsis edilib. Məqsəd isə əhalinin sayının azalmasının, artımın aşağı düşməsinin qarşısını almaq idi.

Hazırda ölkəmizdə 6 və daha çox uşağı olan ailələr çoxuşaqlı ailə hesab edilir. Prezident İlham Əliyevin 27 dekabr 2013-cü il tarixli "Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Fərmanına görə 2014-cü ilin əvvəlindən yeni sosial təminat növünün- 5-dən çox uşağı olan qadınların 18 yaşına çatmamış hər bir uşağına görə aylıq sosial müavinətin verilməsinə başlanılıb. Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli Fərmanı ilə aprelin 1-dən digər bir çox sosial ödənişlər kimi, 5-dən çox uşağı olan qadınların hər uşağına görə aylıq müavinət də 33 manatdan 55 manata çatdırılıb. Yəni, ailədə 18 yaşına çatmamış 6 uşaq varsa, həmin ailəyə aylıq 330 manat, 7 uşaq varsa- 385 manat və verilir.

Sosioloq Aydın Sadıqov hesab edir ki, hazırkı reallıqda "Çoxuşaqlı ailə" məfhumu 3-dən çox uşağı olan ailələrə şamil olunmalıdır: "fikrimcə indi 3 uşaq çoxuşaqlılıq hesab edilməməlidir, bu normal ailə tərkibi hesab edilməlidir. Məncə bu rəqəm 4 olsa, yəni 4 uşağı olan ailəçoxuşaqlı ailə kimi qeydiyyata alınsa və dövlət onlara müəyyən imtiyazlar tanısa daha ədalətli olar".

Qeyd edək ki, ölkəmizdə 3 və ya daha çox uşağı olan qadınlar 57 yaşdan sosial müavinət ala bilirlər, bu qadınlar üçün ayda dövlət 130 manat müavinət ödəyir.

Statistik məlumatlara görə 20 il öncə yalnız 8-12 uşağı olan qadınlar çoxuşaqlı analar kateqoriyasına daxil edilirdisə, indi 4-5 uşaq doğanlar bu statusun qeyri-rəsmi, 6 və daha çox uşaq doğanlar isə rəsmi daşıyıcısıdır. Əgər 80-ci illərdə nəsilvermə qabiliyyətinə malik qadınlar 35-40, bəzən hətta 50 yaşında da dünyaya uşaq gətirirdisə, indi 35 yaşı ötən qadınlar bundan imtina edir. Dövlət Statistika Komitəsinin məlumatında əhalinin nəsilvermə əmsalının aşağı düşdüyü göstərilib. Hazırda nəsilvermə qabiliyyətinə malik qadınların hər birinə 2 uşaq düşür.

Dünya Bankının hesabatında da göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər 5 nəfərdən 1-nin yaşı 65-dən yuxarı olacaq. Əgər vaxtilə 6-7 uşaqlı ailə çoxuşaqlı ailə sayılırdısa, indi 3 uşağı olan ailə çoxuşaqlı sayılır. 50-60 il əvvəlki bu ailələrin uşaqları qocalma dövründədir. Doğumun səviyyəsi aşağı düşdüyündən gənclik də gözə onlar kimi dəymir.

### Çoxuşaqlılıq dünyada: Hansı imtiyazlar var?

Ailəsində çox uşağı olanlar üçün ən sərfəli şərtlər Fransadadır. Burada hətta uşaq dünyaya gəlməmiş anası doğulacaq övladına görə müavinət alır. Belə ki, birinci hamiləliyin 5-ci ayından uşağın 3 aylığına qədər 109 avro, ikinci uşağının doğulmağını gözləyən anaya 130 avro müavinət verilir. Əgər ailədə üçüncü uşağın doğulması gözlənilirsə, onda hamiləliyin dördüncü ayından uşağın 3 yaşına qədər ailə dövlətdən hər ay 975 avro pul alır. Əgər uşaqların sayı altıdan çoxdursa, onların hər birinə görə dövlət ailəyə 870 avro ödənilir.

Rusiyada bir uşaq üçün aylıq müavinət 400 dollardan artıqdır. Hər bir uşaq 18 yaşına qədər bu pulu ala bilir. Ailədə uşaqların sayı artdıqca bu pulun da həcmi də artır. Bundan əlavə 3-cü uşaqdan sonra ailəyə ev və sair daşınmaz əmlak da verilir.

Ukraynada ailədəki birinci uşağa görə 1800, ikinci uşağa görə 3570, üçüncü və ondan sonrakı uşaqlara görə isə 7140 dollar birdəfəlik müavinət nəzərdə tutulub. Eyni zamanda birinci uşağa görə 12 ay, ikinciyə görə 24 ay və ya sonrakı uşaqlara görə isə dövlət 36 ay müddətində 714 dollar məbləğində müavinət ödəyir.

Belarusda isə birinci uşağa görə yaşayış minimumunun ən yüksək həddinin 5 misli, digər uşaqlara görə isə 7 misli qədər müavinət verilir. Qazaxıstanda birinci, ikinci və üçüncü uşağa görə 300 dollar, dördüncü uşaqdan başlayaraq 515 dollar birdəfəlik müavinət verilir.

Avstriyada birinci uşağa 10 yaşına qədər ayda 130 avro, 19 yaşına qədər 153 avro, ikinci uşağa görə müvafiq olaraq 144 və 165 avro, üçüncü uşağa görə 166 və 188 avro, dördüncü uşağa görə isə 181 və 203 avro müavinət alır. Uşaq ali məktəbə qəbul olunduğu halda, müavinət 27 yaşa qədər ödənir.

İsrail dövləti birinci uşağa görə 325 dollar, əkizlərə görə 1600 dollar birdəfəlik müavinət ödəyir. Əgər uşaqlar üçəm olsa, bu məbləğ 2500 dollara qədər artır. Hər uşağa görə isə ayda 180 dollar müavinət verilir. Boşanmış ailələrdə bu göstərici 725 dollar təşkil edir.

Polşada uşağın 18 yaşına qədər dövlət ailəyə 125 dollar pul verir. İsveçrədə isə bu göstərici 345 dollar təşkil edir. Avstraliyada isə hər bir uşaq 18 yaşına qədər dövlətdən 540 dollar pul alır.

### "Cırtdan ailə" modeli təhlükəsinə qarşı nə etmək olar?

Dünya təcrübəsi tək övladı olan ailələri "cırtdan ailə" adlandırır. Bu problem Avropa ölkələrinin ən çox yayılmış, aktual milli-sosial problemlərindən biridir. Elə bizim ölkəmizdə də son illərin ən ciddi sosial problemlərindən biri məhz ailə fərdlərinin minimum saya enməsi hesab edilir.

"Cırtdan ailə"lər adətən bir tək oğlan uşağı ilə kifayətlənir, Avropa ölkələrində bu bir qız övladı ilə də əvəzlənə bilir. Müsəlman cəmiyyətlərində qız övlad nəsil davamçısı hesab edilmədiyindən, oğlan övlada sahib olmaq istəyən valideynlər könüllü olmasa da, "cırtdan ailə" modelini böyütməyə qərar verirlər.

"Sağlam Cəmiyyət" İctimai Birliyinin eksperti Leyla İsmayılovanın fikrincə, cavan valideynlər çoxuşaqlı olmaqdan qorxurlar, qadınlar karyeralarını qurmaq, işlərində yüksəlmək istəyirlər, onlar uşaq böyütməyin çətinliklərinə qatlanmaq, körpəyə baxmaq üçün evdə oturmaq istəmirlər. Bəzən də doğuşa hazır olmurlar, ilk doğuş ağır keçir, ana qorxub stress keçirir və bir daha doğmaq istəmir.

Düzdür, hazırda Azərbaycan öz klassik ailə modelini (2-4 uşaq) prinsipini də qoruyur, amma bu təkuşaqlı ailələrin çoxalmasına maneə deyil. İkiuşaqlıların sayı çox olsa da təkuşaqlı ailələrə yaxın saydadır, bu da təbii ki, nəsil şəcərəsinin şaxələnməsinə maneə törədir. Əvvəl nəsil 5-6 qoldan böyüyürdüsə, indi yalnız bir uşaqdan davam edir. Bu çox təhlükəli tendensiyadır və qarşısı alınmalıdır".

### Çox gəzən yox, çox doğan çox yaşayır

Dünyaya daha çox uşaq gətirən qadınların ömrünün daha az uşaq anası olan həmcinslərinə nisbətən uzun olması barədə hər il araşdırmalar aparılır. Bu araşdırmalar xüsusilə də, Avropa ölkələrində həyata keçirilir və nəticələr KİV-də geniş yayımlanır. Çünki əksər ailələrin 1 və ya 2 uşaqlı olması bəzi ölkələrdə çoxuşaqlılıq anlayışını zamanla unutdurur və bu da demoqrafik vəziyyətə ciddi təsir göstərir.

Tədqiqatçıların fikrincə, dünyaya daha çox uşaq gətirən qadınların xərçəngə tutulma ehtimalı azdır. Bu risk ailənin digər üzvlərində də aşağıdır. Sürix Universitetinin silsilə tədqiqatları 178 ölkənin ümumiləşdirilmiş statistikasını yayımlayanda bu fikrin iddia yox, təsdiqlənmiş fakt olduğu sübut olundu. Nəticələrə görə ailə nə qədər az uşaqlı olarsa, xərçəngə tutulma riski bir o qədər yüksəkdir.

Təbii ki, digər amillərin də təsirinin mütləq olduğunu hesab edən bir çox alim bunu absurd adlandırdı, onlar hesab edirdi ki ailənin maddi vəziyyəti, təhsil səviyyəsi, yaşadığı mühit və s. risk dərəcəsinə mütləq təsir göstərir. Lakin Sürix Universitetinin genişmiqyaslı araşdırması xərçəngə yoluxmada ailədə uşaq sayının ən vacib faktor olduğunu sübut etdi. Xüsusən də, 10 və ya daha çox uşaq dünyaya gətirən qadınlarda döş və reproduksiya orqanlarının xərçəngi riski 25%-ə qədər azalır.

Əgər qadın 20 yaşınadək övlad dünyaya gətirirsə, onun döş xərçəngi riski 30 yaşdan sonra övlad dünyaya gətirən analara nisbətən yarıbayarı azalır. Alimlərin müşahidələrinə görə, 10 və ya daha çox uşağı olan qadınlarda dəri, məmə və tiroid vəzi xərçəngi riski azdır. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni, 6 uşaq sahibi olan ananın ömrü digər anaların ömründən daha çoxdur.

Cırtdan ailələrin məcburən və ya könüllü olaraq kiçiltdiyi, fərdlərini azaltdığı ailə modelinin zədələdiyi milli şəcərəni çoxuşaqlı ailələr şaxələndirəcək. Onlara xüsusi dövlət dəstəyi, ödənişsiz ali təhsil imkanları və sair güzəştlər yaratmaq lazımdır.

Bundan başqa, əksər sosioloqlar hesab edirlər ki, indiki reallıqda 3 və daha çox uşağı olanlara xüsusi müavinətlər verilməlidir. Heç olmasa, hazırda aktual olan və tətbiqi gözlənilən aylıq uşaqpulu bərpa edilən də 3 və daha uşaqlı ailələrə üstünlük verilməlidir. Əgər dövlət bütün uşaqlara aylıq müavinbət evrə bilmirsə, heç olmasa minimum 3 uşağı olan ailələrə müəyyən yardım ödəməlidir. Bu həm həmin uşaqların daha sağlam böyüməsinə, həm cırtdan ailə təhlükəsindən qurtulmağa, həm də əhalimizin artımına müsbət təsir göstərəcək.

***Lalə Mehralı***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

5 noyabr

Son səhifə

# "Fənərbağça" 9 ildən sonra öz rekordunu yeniləyib



Türkiyə Superliqasının yeddinci turunda "Antalyaspor" üzərində 2:1 hesablı qələbə (2:1) "Fənərbağça" üçün əlamətdar olub. Belə ki, İstanbul klubu 2011-2012-ci il mövsümündən bəri ilk dəfə Superliqada ilk yeddi oyundan məğlubiyyətsiz ayrılıb.

Qeyd edək ki, "Fənərbağça" cari mövsümdə keçirdiyi 7 oyundan 5-də qalib gəlib, 2 görüşdə heç-heçə edib. Hazırda 17 xalla lider olan komanda 2011-2012-ci il mövsümündə də bu qədər xal toplayıb. Həmin mövsümdə "Fənərbağça"nın ilk məğlubiyyəti 10-cu tura təsadüf edib.

# "Neftçi" Braziliya və Portuqaliyadan iki futbolçu transfer edəcək




Bakının "Neftçi" klubu qış transfer pəncərəsində daha iki futbolçu ilə güclənməyi düşünür. Belə ki, hazırda klub bununla bağlı fəaliyyətə başlayıb. Paytaxt təmsilçisi xüsusilə Braziliya və Portuqaliyadan bir neçə futbolçu ilə yaxından maraqlanır və onlar haqda məlumat toplayır. Rəhbərlik ilk növbədə pleymeker və hücumçu transfer etməyi düşünür.

# Rasionunuza balqabaq əlavə etməyin 7 faydalı səbəbi



***Balqabaq sellüloz, vitamin və minerallarla, həmçinin sağlamlığın möhkəmlənməsinə kömək edən güclü antioksidləşdiricilərlə zəngindir. AZƏRTAC "MedikForum" saytına istinadən balqabağın sağlamlıq üçün faydalı olan 7 üstün cəhətlərindən bəhs edir.***

Yüksək səviyyədə S vitamini ilə zəngin olan balqabağın həm toxumları, həm də ləti immun sistemini möhkəmləndirir. Bu mikroelement immun sisteminin sağlamlığı üçün çox vacibdir. Mütəxəssislərin fikrincə, balqabaqdakı yüksək dərəcəli faydalı keyfiyyətlər müxtəlif xroniki xəstəliklərin riskini azaldır.

Qeyd edək ki, balqabaq, qanı sağlamlığa səbəb ola biləcək zərərli maddələrin təsirindən qoruyaraq qaraciyərin təmizlənməsinə kömək edir. Balqabağın tərkibindəki karotinoid adlanan zəngin bitki birləşmələri qaraciyərin təmizliyini və sağlamlığını qoruyur. A vitamininə çevrilən beta-karotinlərin, antioksidantların ələ mənbəyi sayılan balqabaq görmə qabiliyyətini tənzimləyir. Qeyd edək ki, A vitamini gözün aydın görməsi və sağlamlığı üçün çox vacibdir.

Balqabaq, həmçinin çəkinin azalmasına imkan yaradır. Onun tərkibindəki sellüloz maddələr nəcisin həcmini artıraraq qəbizliyin qarşısını alır. Onu da qeyd edək ki, balqabağın tərkibində sellüloz maddələrin yüksək dərəcədə olması səbəbindən balqabaq yeyəndən sonra uzun müddət aclıq hiss olunmur.

Orqanizmdə kollagenin həcmini artıran S vitamini dərinin sağlamlığını yaxşılaşdırır. Sözügedən zülalın bədəninizdə yüksək səviyyədə olması dərinizin parlaq qalmasına kömək edir.

Kalium və yüksək qan təzyiqinin qarşısını ala bilən natrium maddələri ilə zəngin olan balqabaq ürəyin sağlam qalması üçün çox faydalıdır. Məlumdur ki, yüksək qan təzyiqi ürək xəstəliyi riskini artırır. Karbohidratların balqabağı doyumlu etmələrinə baxmayaraq, o qanda şəkərin səviyyəsini aşağı salır. Balqabaq şəkərli diabet xəstələrində insulin resistentliyini yaxşılaşdırır və xəstəliyin inkişafını ləngidir.

# Bu həftə gözəllik salonları və bərbərxanalar yenidən bağlanır?



***Xəbər verdiyimiz ki, noyabrın 3-də Azərbaycanda 1242 nəfər koroavirusa yoluxub, 551-i isə müalicə olunaraq sağalıb, evə buraxılıb və 15 nəfər isə vəfat edib. Yoluxma sayı artmaqda davam edərsə bu həftə gözəlik salonları, kafe və restoranlar bağlana bilərmi?***

Bununla bağlı Sonxeber.az-a danışan dosent Ədalət Rüstəm bildirib ki, əgər tədbir görülməsə yoluxma sayı 2000-2050-yə kimi yüksələcək: "Maskasız olanların hər biri cərimələnməli, 65 yaşdan yuxarı şəxslərin evdən çıxmasına qadağa qoyulmalıdır. Digər şəxslər isə apreldəki kimi "sms icazə" ilə çölə çıxmalıdır. 100 manatı verəndən sonra ikinci dəfə insanlar maskasız gəzməyəcək. Hazırda ətrafımda 30 nəfər şəxs var və bunların cəmi 3-4 nəfəri maska taxıb. Maska taxanların da ağzı və burnu açıqdır. Avtobusa minən şəxslər sürücünün yanından keçəndən sonra maskanı çənəyə endirirlər. İctimai qınaq da yoxdur. Heç kim maska taxmayana irad tutmur. Ən önəmlisi insanlarla yaxın kontakda olan gözəlik salonları, bərbərxanalar bağlanılmalıdır. Kafe və restoranlar təlimata uyğun işləməlidir. Stolların arasında 2 metr məsafə qoyulmaldır".

# Soyğunçuluqla məşğul olan şəxslər yaxalanıb



Noyabrın 3-də Nəsimi rayonunun Cavadxan küçəsindəki Təcili Yardım Stansiyasında bir nəfərin həkim Q.Hüseynovanın pulqabısından 1010 manat pulu açıq talama yolu ilə aparması barədə rayon polis idarəsinin 19-cu polis şöbəsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş V.Əlizadə müəyyənləşdirilərək saxlanılıb.

Noyabrın 3-də isə Şirvan Şəhər Polis Şöbəsinə şəhər ərazisində bir nəfərin şəhər sakini N.Rəhimliyə qarşı zor tətbiq edərək 15 manat məbləğində pulunu və mobil telefonunu alması barədə müraciət daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən həmin şəxsin şəhər sakini S.Mehrabov olması müəyyənləşdirilib və o, saxlanılıb. Faktla əlaqədar Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanıb. Hadisələrlə bağlı araşdırma aparılır.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600